# ÖYRƏN - ÖYRƏT

https://archive.org/details/@oyrenoyret2021

DİNİ VƏ ELMİ HƏQİQƏTLƏR - 4



*De: "Mən bunun müqabilində sizdən heç bir əvəz istəmirəm. Yalnız Rəbbinə doğru bir yol tutmaq istəyən kimsələr olmalarını istəyirəm."*
*(Furqan surəsi, 57)*

oyrenoyret2021@gmail.com

## İÇİNDƏKİ BÖLÜMLƏR:


⇒ Elmi Həqiqətlər

⇒ Qurandan Mövzular

⇒ İman Həqiqətləri

⇒ Qurandan Soruş

⇒ Uşaqlar Üçün

⇒ Müqəddəs Kitablardan Qeydlər

⇒ Əlavə Mövzular

## Günəşin, Ayın və Ulduzların Quruluşlarındakı Müxtəliflik

**Üstünüzdə yeddi möhkəm** *(göy)* **qurduq. Sizin üçün çox parlaq bir çıraq** *(Günəş)* **yaratdıq.** (Nəbə surəsi, 12-13)

Məlum olduğu kimi, Günəş öz sistemindəki işığın yeganə mənbəyidir. Astronomlar Ayın işığın mənbəyi olmadığını, onun yalnız Günəşdən qəbul etdiyi işığı əks etdirdiyini texnoloji imkanların inkişaf etməsi sayəsində kəşf ediblər. Yuxarıdakı ayədə qeyd edilən "çıraq" ifadəsi də istilik və işığın mənbəyi olan Günəşi ərəb dilində mükəmməl səviyyədə ifadə edən "sirac" kəlməsidir.

Allah Quranda Ay, Günəş və ulduzlar kimi göy cisimlərindən bəhs edərkən müxtəlif kəlmələr işlədir.



Günəşlə Ayın yaradılmasındakı müxtəliflik Quranda belə ifadə edilir:

**Orada ayı bir nur, günəşi də bir çıraq etdi.** (Nuh surəsi, 16)

Yuxarıdakı ayədə Ay üçün işıq (ərəb dilində "nur"), Günəş üçünsə çıraq (ərəb dilində "sirac") kəlmələri işlədilir. Burada Ay üçün işlədilən söz işığı əks etdirən parlaq və hərəkətsiz bir kütləni ifadə edir. Günəş üçün işlədilən kəlmə isə "həmişə yanan, istilik və işığın mənbəyi, göydəki bir nəsnə" mənalarına gəlir. Digər tərəfdən, "ulduz" kəlməsi ərəb dilində "meydana çıxan, görünən" mənalarına gələn "nəcəmə" kökündən törəmişdir. Bundan başqa, ulduz aşağıda ayədəki kimi, "işığı ilə qaranlıqları yaran", "parıldayan", "özü-özünü tükəndirən" və "yanan" mənalarına işarə edən "səqib" kəlməsi ilə də ifadə edilir:

*(O, zülməti yaran)* **parlaq ulduzdur.**

(Tariq surəsi, 3)

Ayın öz işığını ətrafa yaymadığını, onun yalnız Günəşdən gələn işığı, Günəş və ulduzların isə öz işıqlarını əks etdirdiyini artıq müasir elmdən bilirik. Bu həqiqətlər Quranda insanların göy cisimləri ilə bağlı məlumatının çox məhdud və bəsit olduğu bir zamanda, yəni 14 əsr bundan əvvəl bildirilmişdir.

## Orbitlər və Dövr Edən Kainat

Kainatdakı əzəmətli nizamın mühüm səbəblərindən biri də şübhəsiz ki, göy cisimlərinin müəyyən edilmiş oxları ətrafında hərəkət etməsidir. Ulduzlar, planetlər və peyklər həm öz oxları ətrafında, həm də bağlı olduqları sistemlə birlikdə hərəkət edirlər. Kainat sanki fabrikin dişli alətləri kimi incə bir sistemdə hərəkətdədir.

Kainatda təxminən 100 milyarddan çox qalaktika və kiçik qalaktikalarda təxminən bir milyard, böyük qalaktikalarda isə bir trilyondan çox ulduz var. *(World Book Encyclopedia, 2003; Boston Universitetinin astronomiya və fizika professoru Kenneth Brecher'in əlavələri ilə.)* Bu ulduzların əksəriyyətinin planetləri, bu planetlərin də öz peykləri var. Bütün bu göy cisimləri çox incə hesabla müəyyən edilən orbitlərə malikdir. Onların hər biri milyon illərdir ki, öz orbitində digərləri ilə qüsursuz bir uyğunluqda və nizamda hərəkət edir. Bunlarla yanaşı, çoxlu quyruqlu ulduzlar da mövcuddur ki, onlar da öz orbitlərində fasiləsiz hərəkət halındadır.

Kainatdakı orbitlər ancaq bəzi göy cisimlərinə aid deyil. Günəş sistemi hətta başqa qalaktikaların, başqa mərkəzlərin ətrafında böyük hərəkilik (dinamiklik, fəaliyyət) nümayiş etdirir. Yer və onunla birlikdə Günəş sistemi əvvəlki yerindən hər il 500 milyon kilometr uzaqlaşır.

Hesablanıb ki, göy cisimləri öz

orbitlərindəki istiqamətlərindən qismən çıxsa, bu sistem alt-üst olacaq. Məsələn, Yer öz orbitində yerini adi vəziyyətdəki istiqamətindən aşağı-yuxarı cəmi 3 mm dəyişsə, meydana gələcək dəhşətli hadisələr bir mənbədə belə bildirilir:

*"Yer kürəsi Günəşin ətrafında dövr edərkən elə hərəkət edir ki, hər 18 mildə orbitindən 2,8 mm ayrılır. Yer kürəsinin orbitdəki bu hərəkəti 1 mm-lik belə fərq yarada, hansı tərəfəsə meyillənə və ya sapa bilməz. Çünki onun orbitindən 3 mm -lik ayrılması böyük fəlakətlərə səbəb olardı. Yer öz orbitindən bu zaman 2,8 mm deyil, 2,5 mm ayrılsaydı, dünyadakı bütün canlılar donardı. Əgər orbitdən ayrılma 3,1 mm olsaydı, bütün canlılar istidən yanaraq kül olardı".*

*(Bilim ve Teknik, iyul 1983.)*



Göy cisimlərinin fərqli bir xüsusiyyəti də onların öz orbitləri ilə yanaşı, həm də öz oxları ətrafında hərəkət etməsidir. Quranın **"Dönüşlü olan göyə and olsun"** (Tariq surəsi, 11) ayəsi məhz bu həqiqətə işarədir. Əlbəttə, Quranın göndərildiyi dövrdə insanlar dövrümüzdə olduğu kimi kosmosu milyonlarla kilometr uzaqlara qədər müşahidə edə biləcək teleskoplara, inkişaf etmiş texnologiyalara, müasir fizika və astronomiya haqqında məlumatlara malik deyildi. Dolayısilə, kainatın ayədə bildirildiyi kimi, **"***(Cürbəcür ulduz)* **yolları olan göy"** (Zəriyat surəsi, 7) olduğunu həmin dövrdə elmi şəkildə sübut etmək də mümkün deyildi. Ancaq həmin əsrdə nazil edilən Qurani-kərimdə bu həqiqət bizə aydın şəkildə xəbər verilir, çünki Quran Allahın sözüdür.

## Günəşin Hərəkət İstiqaməti

Quranda Günəşdən və Aydan bəhs edilərkən onların hər birinin özünəməxsus orbitinin olması qeyd edilir:

**Gecəni və gündüzü də, Günəşi və Ayı da yaradan Odur. Onların hər biri** *(özünə məxsus)* **bir göydə üzür.**

(Ənbiya surəsi, 33)

Bu ayədəki "üzmək" kəlməsi ərəb dilində "səbəhə" feili ilə ifadə edilir. Bu kəlmədən Günəşin kosmosdakı hərəkətini bildirmək üçün istifadə olunub. Bu kəlmə həmçinin Günəşin kosmosdakı hərəkətinin nəzarətsiz olmadığını, onun öz orbitində hərəkət etdiyini və dövr edərkən özünəməxsus hərəkət dairəsi olduğunu anladır. Günəşin sabit (və ya statik) olmaması, onun müəyyən orbitdə hərəkət etməsi başqa bir ayədə belə qeyd edilir:

**Günəş də özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan (hər şeyi) bilən Allahın təqdiridir.** (Ya Sin surəsi, 38)

Quranda bildirilən bu həqiqətlər yalnız və yalnız XX əsrdə astronomiya elmi sahəsində aparılan tədqiqatlarla təsdiq edilib. Mütəxəssislərin hesablamalarına görə, Günəş "Solar Apeks" adlı orbit boyu Veqa ulduzu istiqamətində saatda 720 000 kilometrlik möhtəşəm bir sürətlə hərəkət edir. Bu təxmini hesablama Günəşin sutka ərzində 17 milyon 280 min kilometr yol qət etdiyini göstərir. Günəşlə birlikdə onun cazibə sistemindəki bütün planet və peyklər də eyni məsafəni qət edirlər.



# Ayın Orbiti

***Biz ay üçün də mənzillər müəyyən etdik. Nəhayət, o, dönüb xurma ağacının qurumuş əyri budağı kimi olar. Nə günəş aya çatar** (yetişər)**, nə də gecə gündüzü ötə bilər. Hər biri** (özünə məxsus) **bir göydə** (orbitində) **üzər.***

(Ya Sin surəsi, 39-40)



Ayın orbiti başqa planetlərin peykləri kimi düz orbitdə hərəkət etmir. Ay orbitində dövr edərkən bəzən Yer kürəsinin qarşısına, bəzən arxasına keçir. Həmçinin Ay Yer kürəsi ilə birlikdə Günəşin ətrafında da dövr etdiyinə görə, fəzada həmişə "S" hərfinə oxşayan bir orbitdə hərəkət edir. Ayın kosmosdakı bu orbitinin şəkli Quranda "dönüb xurma ağacının köhnə, qurumuş əyri budağı kimi dönər" ifadəsi ilə tərif edildiyi kimi, qurumuş xurma ağacının budağının əyriliyinə çox oxşayır. Bundan başqa, ayədə qeyd edilən "urcun" kəlməsinin mənası "quruyub incəlmiş, bükülmüş xurma budağı"dır və xurma ağacının meyvələri yığılandan sonra, salxımdan sonra qalan hissəsini ifadə etmək üçün işlədilir. Bu salxım budağının "köhnə" ifadəsi ilə təsvir edilməsi də çox hikmətamizdir, çünki xurma budağının köhnəsi daha nazik və daha əyridir.

Əlbəttə, 1400 il əvvəl Ayın orbiti haqqında məlumata malik olmaq mümkün deyildi. Müasir texnologiya və geniş elmi biliklər sayəsində müəyyən edilə bilən formanın Quranda bu cür qüsursuz bir təşbehlə bildirilməsi, Quranda göstərilən elmi möcüzələrdən daha birisidir.

# Ay İlinin Hesablanması

**Günəşi işıqlı, ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, ay üçün mənzillər müəyyən edən məhz Odur. Allah bunları ancaq haqq olaraq yaratdı. O, ayələrini anlayıb bilən bir tayfa üçün belə müfəssəl izah edər!** (Yunus surəsi, 5)

**Biz ay üçün də mənzillər müəyyən etdik. Nəhayət, o dönüb xurma ağacının quru və əyri budağı kimi olar.** (Ya Sin surəsi, 39)

Yuxarıdakı ilk ayədə Allah Ayın insanlar üçün illərin hesablanmasında bir ölçü olacağını aydın şəkildə bildirmişdir. Bundan başqa, bu hesablamalar nəzərləri Ayın öz orbitində hərəkəti əsnasındakı yerlərinə uyğun olacağına cəlb edir. Yer-Ay və Yer-Günəş istiqamətləri arasındakı bucaq davamlı olaraq dəyişdiyi üçün biz Ayı çeşidli vaxtlarda müxtəlif şəkillərdə görürük. Ayı görməyimiz Ayın Günəşdən aldığı işığı əks etdirməsi səbəbi ilə mümkündür. Bunun üçün də Ayın Günəşin ətrafından işıqlandırılan tərəfi Yerdəki müşahidəçiyə görə həmişə dəyişir. Bu dəyişikliklər nəzərə alınaraq bəzi hesablamalar aparılır ki, bu da illəri hesablamağı asanlaşdırır.




Əvvəllər 1 ay insanlar tərəfindən iki bədirlənmiş ay arasındakı vaxt və ya Ayın Yerin ətrafında dövr etdiyi zaman kəsiyi olaraq götürülürdü. Bu hesaba görə, bir ay 29 gün 12 saat 44 dəqiqə təşkil edirdi. Buna qəməri ay deyilir. 12 qəməri ay isə Rum təqviminə görə 1 il edir. Ancaq Yerin Günəş ətrafındakı dövrəsi

qurtaranda 1 il olaraq qəbul etdiyimiz miladi təqvimlə Rum təqvimi arasında hər il 11 günlük fərq meydana gəlir. "Kəhf" surəsinin 25-ci ayəsində bu fərq belə şərh olunur:

***Onlar mağarada üç yüz il qaldılar və üstünə doqquz il də əlavə olundu.***

(Kəhf surəsi, 25)

Ayədə qeyd edilən dövrü belə aydınlaşdırmaq mümkündür: 300 il + 11 gün (hər il üçün meydana gələn fərq) = 3300 gün. 1 Günəş ilinin 365 gün 5 saat 48 dəqiqə 45,5 saniyədən ibarət olması nəzərə alınsa, 3300 gün / 365,24 gün = 9 ilə bərabərdir. Başqa sözlə, miladi təqvimə görə 300, Rum təqviminə görə isə 300+9 ildir. Aydın olduğu kimi, ayədə çox incə hesablamaya əsaslanan bu 9 illik fərq diqqətimizə çatdırılıb (ən doğrusunu Allah bilir). Quranda belə bir məlumatın qeyd edilməsi müqəddəs kitabımızın, şübhəsiz ki, elmi möcüzələrindən biridir.

## Cazibə Qüvvəsi və Orbitvari Hərəkətlər

**And içirəm yanıb-sönənlərə** *(planetlərə)*; **seyr edib yerini alan** *(gizlənən)* **səyyarələrə.** (Təkvir surəsi, 15-16)

"Təkvir" surəsinin 15-ci ayəsində qeyd edilən "xunnəs" sözü "büzülən, geriyə gedən, qayıdan" kimi mənalara gəlir. 16-cı ayədə "yerini alanlara" kimi tərcümə edilən ərəb dilindəki ifadə isə "kunnəs"dir. "Kanis" kəlməsinin cəmi olan "kunnəs" ifadəsi "bilinən güzərgah, yuvaya girmək, hərəkət halında olan cismin yuvası, yuvasına girib gizlənənlər" mənalarına gəlir. Yenə 16-cı ayədə ifadə edilən "seyr edən" kəlməsi isə "cərəyan" sözünün kökündən törəyən və "axıb gedən, seyr edən" mənasına gələn "cariyə" sözünün cəmi "əlcəvari"dir. Bu sözlərin mənaları nəzərə alınanda planetlərin cazibə qüvvələrinə və orbit ətrafındakı hərəkətlərinə işarə edildiyi anlamına gələ bilər.

Yuxarıdakı ayələrdə bu kəlmələr cazibə qüvvələrindən qaynaqlanan orbitvari hərəkətləri tam olaraq tərif edir. Bunlardan "xunnəs" kəlməsi ilə planetlərin həm öz nüvələri istiqamətində, həm də Günəş sisteminin mərkəzi olan Günəşə tərəf cəzb edilməsinə diqqət çəkilir (ən doğrusunu Allah bilir). Cazibə qüvvəsi kainatda mövcud olan bir qüvvədir, ancaq bu cazibə qüvvəsinin riyazi düsturlarla göstərilməsi XVII-XVIII əsrlərdə yaşamış İsaak Nyuton tərəfindən mümkün olmuşdur. Sonrakı ayədə qeyd edilən "əlcəvari" kəlməsi də bu cazibə qüvvəsinə qarşı dirənən mərkəzdən qaçma qüvvəsindən qaynaqlanan orbitvarı hərəkətləri vurğulayır. Şübhəsiz ki, seyr edənlər, axıb gedənlər mənasına gələn "əlcəvari" sözünün "xunnəs" (mərkəzə tərəf çəkilmək, büzülmək) və "kunnəs" (güzərgah, yuvaya girmək, hərəkət halındakı cismin yuvası) kəlmələri ilə işlədilməsi 1400 il əvvəl bilinməsi mümkün olmayan mühüm bir elmi həqiqətə diqqət çəkir (ən doğrusunu Allah bilir). Bundan başqa, Quranda and içilən məsələlərdən biri olan bu ayələr mövzunun əhəmiyyətinə diqqəti çəkən başqa bir işarədir.



## Dirildilməyəcəyik Dedilər:

**ƏHQAF, 17:** Kimisi də ata-anasına: "Tfu sizə! Məndən əvvəl neçə-neçə nəsillər gəlib-getdiyi halda, siz məni qəbirdən çıxarılacağımlamı hədələyirsiniz?"– deyər. Onlar Allahdan yardım diləyərək: "Vay sənin halına! İman gətir, Allahın vədi haqdır!"– deyərlər. O isə: "Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir!"– deyər.

**VAQİƏ, 47:** və deyirdilər: "Məgər biz ölüb torpaq və sür-sümük olduqdan sonra yenidənmi dirildiləcəyik?



**MÜMİNUN, 82:** Onlar dedilər: "Məgər biz ölüb torpaq və sür-sümük olduqdan sonra dirildiləcəyik?"

**SƏCDƏ, 10:** Onlar deyirlər: "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" Doğrusu, onlar öz Rəbbi ilə qarşılaşacaqlarını inkar edirlər.

**SƏCDƏ, 11:** De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!"

**İSRA, 98:** Ayələrimizi yalanladıqları, "Sümük və xırdalanmış torpaq olduqdan sonra biz yeni bir yaradılışla dirildiləcəyik?" dedikləri üçün cəzaları budur.

**İSRA, 49:** Dedilər ki: "Sümük və xırda parçalanmış hala düşdükdən sonramı yeni bir yaradılışla dirildiləcəyik?!"

**İSRA, 50:** De ki: "İstər daş və ya dəmir olun,"

**İSRA, 51:** Yaxud sizə görə qeyri-mümkün görünən bir formaya girin, fərq etməz." Buna qarşılıq, "Bizi kim geri döndərəcək," deyəcəklər. De ki: "Sizi ilk öncə kim yaratdısa O!" Sonra başlarını sallayıb, "Yaxşı, nə zaman?" deyəcəklər. De ki: "Bəlkə düşündüyünüzdən daha yaxın..."

**İSRA, 52:** Sizi çağıracağı gün, siz Ona təriflə qarşılıq verərsiniz və çox qısa bir müddət qaldığınızı anlayarsınız.

**NƏHL, 38:** "Allah ölən bir kəsi diriltməz" deyə bütün gücləriylə Allaha and içərlər. Xeyr, Onun verdiyi gerçək bir sözdür o. Ancaq insanların çoxu bunu bilmir.

**RƏD, 5:** Təəccüblənəcəksənsə, onların bu sözlərinə təəccüblənməlisən: "Biz torpaq olduqdan sonra yenidənmi yaradılacağıq?" Bax onlar, Rəblərini inkar edənlərdir. Onlar, boyunlarına qandallar vurulmağa layiq olanlardır. Onlar Atəşin əhlidir; həqiqətən orada əbədi qalacaqlar.

**SAFFAT, 16:** Məgər biz öldükdən, sür-sümük olub torpağa çevrildikdən sonra dirildiləcəyikmi?

**SAFFAT, 17:** Ya da atalarımızmı dirildiləcəklər?"

**SAFFAT, 18:** De: "Bəli, özü də, zəlil günə qalmış olduğunuz halda dirildiləcəksiniz".

**SAFFAT, 19:** Bu, təkcə dəhşətli bir səs olacaq və onlar qəfildən dirilib görməyə başlayacaqlar.



**YA-SİN, 78:** O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?"

**YA-SİN, 79:** De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir.

**SƏBA, 7:** Kafirlər dedilər: "Çürüyüb parça-parça olduqdan sonra yenidən yaradılacağınızı xəbər verən bir kişini sizə göstərəkmi?

**SƏBA, 8:** Əcəba, o, Allahın əleyhinə

yalanmı quraşdırır, bəlkə onda divanəlik var?” Xeyr! Axirətə inanmayanlar əzaba düçar olacaq, dərin bir azğınlıq içində qalacaqlar.

**HUD, 7:** O, hansınızın daha yaxşı iş görəcəyini sınamaq üçün göyləri və yeri altı gündə yaradandır. Hökmranlığı suyun üzərində idi. Buna rəğmən, kafirlərə, "Siz ölümdən sonra dirildiləcəksiniz," desən, kafirlər, "Bu, ancaq açıq-aşkar bir sehrdir (aldadıcı bir sözdür)," deyəcəklər.

**NƏML, 67:** Kafirlər dedilər: “Məgər biz və atalarımız torpağa qarışdıqdan sonra qəbirlərdən çıxardılacağıq?

**NƏML, 68:** Bu dirilmə həm bizə, həm də əvvəllər atalarımıza vəd olunmuşdu. Bu, keçmişdəkilərin uydurduğu əfsanələrindən başqa bir şey deyildir”.

**ƏNAM , 29:** "Bizim üçün sadəcə dünya həyatı vardır, diriləcək deyilik," deyirdilər.

## Allahın Nemətinə Qarşı Nankorluq:

**ƏRAF, 189:** O Sizi tək bir nəfsdən (eyni genetik xüsusiyyətdən) yaratdı. Ondan da zövcəsini yaratdı ki, sükunət tapsın. Zövcəsinə yaxınlaşınca, yüngül bir yüklə yükləndi və onunla dolaşdı. Yükü ağırlaşınca hər ikisi Rəbləri Allaha: "Bizə qüsursuz bir övlad verərsən şükür edənlərdən olacağıq," deyə yalvardılar.

**ƏRAF, 190:** Onlara qüsursuz bir övlad verincə, Onun onlara verdiyi bu hədiyəylə əlaqəli olaraq Ona ortaqlar qoşmağa başladılar. Allah onların ortaq qoşduqları hər şeydən çox Ucadır.

**BƏQƏRƏ, 152:** Siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə küfr etməyin!

**HUD, 9:** İnsana Özümüzdən bir rəhmət daddırsaq və sonra ondan geri alsaq, ümidsizliyə qapılar, nankorlaşar.

**HUD, 10:** Ona toxunan zərərlərdən sonra ona nemətlər daddırsaq, "Pisliklər (çətinliklər) məndən getdi," deyər. Bu dəfə sevinclidir, təkəbbürlüdür.

**İBRAHİM, 28:** Allahın nemətini nankorluqla qarşılayaraq xalqlarını fəlakət yurduna məhkum edənləri görmədinmi?

**İBRAHİM, 34:** Ondan nə istədinizsə sizə verdi. Allahın nemətlərini saysanız, bitirə bilməzsiniz. İnsan oğlu gerçəkdən çox zalımdır, çox nankordur.

**NƏHL, 53:** Sizə yetişən hər nemət Allahdandır. Necə ki, bir sıxıntıya uğradığınızda sadəcə Ona yalvarırsınız.

**NƏHL, 54:** Halbuki, sizdən o sıxıntını qaldırdığı zaman, sizdən bir qrup Rəblərinə ortaq qoşmağa başlayır.

**NƏHL, 55:** Onlara verilənə nankorluq edərək... Kefinizə baxın; yaxında mütləq biləcəksiniz!

**NƏHL, 72:** Və Allah öz cinsinizdən sizin üçün zövcələr yaratdı, zövcələrinizdən də sizin üçün övladlar və nəvələr yaratdı və sizə gözəl ruzilər verdi. Belə olduğu halda onlar batilə iman edib Allahın nemətinə nankorluqmu edirlər?

**NƏHL, 112:** Allah güvən içində uğur qazanmış bir topluluğu örnək olaraq verir: O topluluğun ruzisi onlara hər tərəfdən bol miqdarda yetişirdi. Ancaq daha sonra, Allahın nemətlərinə qarşı nankor davranınca Allah onlara aclıq və qorxu bəlasını daddırdı.

**İSRA, 26:** Əqrəbalara haqqlarını ver. Ehtiyac sahiblərinə və yolçuya da (yolda qalmışa da)... Ancaq israf etmə

**İSRA, 27:** Şübhəsiz, israf edənlər şeytanların dostlarıdır. Və şeytan Rəbbinə qarşı nankordur.

**İSRA, 67:** Okeanda sizə bir sıxıntı toxunarsa, Ondan başqa çağırdıqlarınız yox olar. Fəqət sizi qurtarıb quruya çıxarınca, dönərsiniz (üz döndərərsiniz). İnsan nankordur.

**HƏCC, 38:** Şübhəsiz ki, Allah iman gətirənləri mühafizə edir. Həqiqətən, Allah heç bir nankor xaini sevmir.

**HƏCC, 66:** Sizə həyat verən, sonra öldürəcək, daha sonra diriləcək məhz Odur. İnsan, həqiqətən də, nankordur.

**FURQAN, 48:** Küləkləri Öz mərhəməti önündə yağışdan qabaq müjdəçi olaraq göndərən Odur. Biz göydən tərtəmiz su endirdik ki,

**FURQAN, 49:** onunla ölü bir diyarı canlandıraq, yaratdığımız neçə-neçə heyvanlara və neçə-neçə insanlara ondan içirdək.

**FURQAN, 50:** Biz düşünüb ibrət alsınlar deyə o suyu onların arasında paylaşdırdıq. Lakin insanların çoxu küfrdən başqa bir şey qəbul etmədilər.

**NƏML, 40:** Kitabdan xəbəri olan bir başqa kimsə isə belə dedi: "Mən onu sənə bir göz qırpımında gətirərəm!" Süleyman taxtı yanında hazır durmuş görən kimi dedi: "Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, bilsin ki, həqiqətən, Rəbbim onun şükrünə möhtac deyildir, Səxavətlidir!"

**QASAS, 58:** Biz xoş güzəranı ilə qürrələnən neçə-neçə şəhəri məhv etdik. Budur onların yurdları. Özlərindən sonra bəzilərindən başqa orada heç kəs sakin olmadı. Onlara Biz varis olduq.

**ƏNKƏBUT, 65:** Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. Allah onları xilas edib quruya çıxaran kimi, yenə də Ona şərik qoşurlar.

**ƏNKƏBUT, 66:** Bu ona görədir ki, Bizim onlara verdiyimiz nemətlərə nankorluq etsinlər və hələlik əylənsinlər. Amma tezliklə biləcəklər.

**RUM, 33:** İnsanların başına bir bəla gəldiyi zaman Rəbbinə üz tutub Ona yalvarırlar. Sonra O, Özündən onlara bir mərhəmət daddıran kimi, onlardan bir dəstə Rəbbinə şərik qoşur.

**RUM, 34:** Bu ona görədir ki, Bizim onlara verdiyimiz nemətlərə nankorluq etsinlər. Hələlik əylənin! Tezliklə biləcəksiniz.

**RUM, 50:** Sən Allahın mərhəmətinin izlərinə bax ki, yeri öldükdən sonra necə dirildir. Şübhəsiz ki, O, ölüləri də mütləq diriləcəkdir. O, hər şeyə qadirdir.

**RUM, 51:** Əgər Biz bir külək göndərsək və onlar əkini saralmış görsələr, bundan sonra mütləq nankorluq etməyə başlayarlar.

**LOĞMAN, 12:** Biz Loğmana hikmət verdik: "Allaha şükür et! Kim şükür etsə, özü üçün şükür etmiş olar. Kim nankor olsa, bilsin ki, Allah onun şükrünə möhtac deyildir, Tərifəlayiqdir".

**LOĞMAN, 32:** Dağların saldığı kölgələr kimi dalğalar onları çulğadığı zaman onlar dini məhz Allaha məxsus edərək Ona yalvararlar. Allah onları xilas edib quruya çıxartdıqda isə aralarından bəziləri küfrlə iman arasında orta yol tutar. Bizim ayələrimizi yalnız nankor xainlər inkar edərlər.

**SƏBA, 33:** Zəiflər özləri haqda yüksək rəydə olanlara deyərlər: "Xeyr! İşiniz gecə-gündüz hiylə qurmaq idi. Siz bizə Allahı inkar etməyi və Ona şəriklər qoşmağı əmr edirdiniz". Onlar əzabı gördükdə peşmançılıq hissini gizlədərlər. Kafirlərin boyunlarına zəncirlər vurarıq. Onlar ancaq etdikləri əməllərə görə cəzalandırılarlar.

**FATİR, 36:** Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı onlar üçün yüngülləşdirilər. Biz hər bir kafiri belə cəzalandırırıq.

**ZUMƏR, 3:** Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– deyirlər. Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz.

**MUMİN, 42:** Siz məni Allahı inkar etməyə, bilmədiyim bir şeyi Ona şərik qoşmağa çağırırsınız, mən isə sizi Qüdrətli və Bağışlayan Allaha çağırıram.

**ŞURA, 48:** Əgər üzlərini çevirsələr, unutma ki, Biz səni onlara nəzarətçi təyin etməmişik. Sənin vəzifən ancaq təbliğ etməkdir. Biz insana Öz mərhəmətimizdən daddırdıqda ona sevinir. Onlara öz əlləri ilə etdikləri əməllərin ucbatından bir bədbəxtlik üz verdikdə isə insanın nankor olduğunu görərsən.

**ZUXRUF, 15:** Müşriklər Allahın qullarından bəzisini Onun bir hissəsi qəbul etdilər (Ona övladlar və şəriklər qoşdular). Həqiqətən, insan açıq-aydın nankordur.

**ZUXRUF, 16:** Yoxsa Allah yaratdıqlarından qızları Özünə götürüb oğlanları sizin üçün seçmişdir?

**İNSAN, 2:** İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik.

**İNSAN, 3:** Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun.

**İNSAN, 24:** Belə ki, Rəbbinin qərar verəcəyinə qədər səbir et və onlardan heç bir günahkara və ya nankora itaət etmə!

**ƏBƏSƏ, 17:** Qoy ölsün kafir insan! O necə də nankordur!

**ƏBƏSƏ, 18:** Qoy baxıb görsün Allah onu nədən yaradıb?

**ƏBƏSƏ, 19:** Allah onu nütfədən yaratdı və müəyyən şəkildə formalaşdırdı.

**ƏBƏSƏ, 20:** Sonra da onun yolunu asanlaşdırdı.

**ƏBƏSƏ, 21:** Sonra onu öldürüb qəbirə yerləşdirdi.

**ƏBƏSƏ, 22:** İstədiyi bir zaman onu dirildəcəkdir.

**ƏBƏSƏ, 23:** Xeyr! O, hələ də Allahın ona buyurduğunu yerinə yetirməmişdir.

**ADİYAT, 6:** Həqiqətən, insan Rəbbinə qarşı yaman nankordur.

## Günahkarlar Üzlərindən Tanınarlar:

**ALİ-İMRAN, 106:** O gün neçə-neçə üzlər ağaracaq, neçə-neçə üzlər də qaralacaqdır. Üzləri qaralan kəslərə: "İman gətirdikdən sonra kafirmi oldunuz? Elə isə, küfrünüzə görə dadın əzabı!"– deyiləcəkdir.

**YUNUS, 27:** Pislik və günah qazananlara isə pisliyinin eynisi ilə qarşılıq verilir. Üzlərini bir alçalma hissi bürüyər. Allahdan başqa bir qoruyucuları yoxdur. Üzləri sanki qaranlıq gecədən bir parçayla bürünmüşdür. Onlar atəş əhlidir; onlar orada əbədi qalacaqlar.

**QİYAMƏ, 24:** O gün neçə-neçə üzlər də tutulub qaralacaq,

**ƏBƏSƏ, 40:** O gün neçə-neçə üzlərə toz-torpaq hopacaq,

**ƏBƏSƏ, 41:** onları zülmət bürüyəcəkdir.

**ƏBƏSƏ, 42:** Məhz onlar kafirlər, günahkarlardır!

## İbrahimin Dini (əlaqəli)

**BƏQƏRƏ, 130:** Səfeh olanlardan başqa kim İbrahimin dinindən üz çevirər? Biz onu dünyada elçi seçdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdən olacaqdır.

**ALİ-İMRAN, 95:** De ki: "Allah doğrunu söyləyər; İbrahimin tək tanrıçı (hənif) dininə tabe olun. O, ortaq qoşanlardan olmadı".

**NİSA, 125:** Allaha təslim olaraq yaxşılıq edən və İbrahimin hənif dininə tabe olandan daha gözəl bir dinə kim sahib ola bilər? Allah İbrahimi dost seçdi.

**ƏNAM , 161:** De ki: "Rəbbim məni ən doğru olan yola yönəltmişdir: Monoteist olan İbrahimin mükəmməl dininə... O, ortaq qoşanlardan olmadı."

**NƏHL, 123:** Necə ki, İbrahimin dinini bir monoteist (hənif) olaraq izləməyin üçün sənə vəhy etdik; o əsla bütpərəstlərdən olmadı.

**HƏCC, 78:** Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl nazil etdiyi kitablarda, həm də bu Kitabda sizi müsəlman adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O sizin Himayədarınızdır. O nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!

## Yarasaların Radarı

Yarasalar çox qəribə varlıqlardır. Onları qəribə edən xüsusiyyətlərinin başında isə, fövqəladə istiqamət tapma qabiliyyətləri gəlir.



Yarasaların bu qabiliyyəti, elm adamları tərəfindən aparılan bir sıra təcrübələr sayəsində ortaya çıxarıldı. Bu canlıların quruluşundakı fövqəladə dizaynı görmək üçün, bu təcrübələrə bir az nəzər yetirək: ( J. A. Summer, Maria Torres, Scientific Researchs about Bats, Boston: National Academic Press, Eylül 1996, s. 192-195.):

Bu təcrübələrin ilkində, yarasa tamamilə qaranlıq bir otağa buraxıldı. Eyni otağın bir küncünə isə yarasanın qidası olan bir milçək yerləşdirildi. Bu andan etibarən otaqda olub bitənlər isə gecəgörmə kameralarıyla izlənildi. Milçək qanadlarını havada hələ təzə çırpmağa başladığı anda, otağın bir küncündən sürətlə hərəkətə başlayan yarasa düz milçəyin yanına gəlib onu ovladı. Tədqiqatçılar bu təcrübə sayəsində yarasaların qaranlıqda belə işləyən çox güclü bir hissetmə qabiliyyətinin olduğu nəticəsinə gəldilər. Amma görəsən yarasanın bunu hissetməsi, onun eşitmə duyğusundanmı, yoxsa sahib olduğu bir gecə görmə sistemindənmi qaynaqlanırdı.

Məhz bunun üçün ikinci bir təcrübə aparıldı. Eyni otağın bir küncündə, yerə bir qrup tırtıl buraxıldı və üzərlərinə bir qəzet səhifəsi örtüldü. Sərbəst qalan yarasa, heç vaxt itirmədən, yerdəki qəzet səhifəsini qaldıraraq tırtılları yedi. Bu, yarasanın istiqamət tapma qabiliyyətinin görmə hissiylə əlaqəli olmadığını göstərirdi.

Elm adamları yarasalarla əlaqədar təcrübələrinə davam etdilər: Yeni təcrübə uzun bir koridorda aparıldı. Bir uca yarasa, digər uca isə yem olaraq bir qrup kəpənək yerləşdiriləcəkdi. Ancaq bundan əvvəl koridoru eninə kəsən, bir-birinə paralel divarlar inşa edildi. Daha sonra da bu divarların hər birində ancaq bir yarasanın keçə biləcəyi böyüklükdə təkcə bir deşik açıldı. Amma dəliklər hər divarın fərqli bir yerində idi. Yəni yarasanın bu divarlardan keçməsi üçün sanki "slalom" yarışı keçirən xizəkçilər kimi daimi manevrlər etməsi lazım gələcəkdi.



Zülmət qaranlıq koridorun başındakı yarasanın sərbəst buraxılmasıyla birlikdə elm adamları müşahidələrinə başladı. Yarasa birinci divara çatanda düz deşiyə tərəf hərəkət edərək buradan asanlıqla keçdi. Bundan sonrakı hər divarda eyni şey müşahidə edildi: Yarasa nəinki divara dəymədi, hətta divar səthindəki deşikləri axtarmağa belə ehtiyac duymadı. Son divarı da rahatlıqla keçən yarasa burada tutduğu kəpənəklərlə qarnını doyurdu.

Bu vəziyyət qarşısında təəccüblərini gizlədə bilməyən elm adamları yarasanın bu xüsusiyyətindəki həssaslığı anlamaq üçün son bir təcrübə daha aparmağa qərar verdilər. Bu dəfə məqsəd yarasanın hissetmə hüdudlarını daha konkret müəyyənləşdirməkdi. Yenə uzun üstüörtülü bir keçid inşa edildi və bu üstüörtülü keçid boyunca da tavandan yerə doğru 0,6 mm qalınlığında, dağınıq

halda gərilmiş polad tellər çəkildi. Yarasa, təcrübəçiləri bir dəfə daha təəccübləndirərək, gərilmiş tellərin heç birinə ilişmədən, bir dəfəyə aralarından keçərək səfərini müvəffəqiyyətlə tamamladı. Yarasanın bu uçuşu 0,6 mm qalınlığındakı telləri belə uzaqdan hiss etdiyini göstərirdi. Daha sonra aparılan digər tədqiqatlar, yarasaların bu inanılmaz hiss etmə qabiliyyətlərinin sahib olduqları bir hidrolokasiya sisteminə bağlı olduğunu göstərdi. Yarasalar ətraflarındakı cisimləri hiss etmək üçün yüksək tezlikli səs dalğaları yayırlar. İnsanlar tərəfindən eşidilməyən bu dalğaların əks-sədaları yarasa tərəfindən hiss edilir və beləliklə də heyvan içində olduğu mühitin bir növ "xəritə"sini hazırlayırdı. <u>(Donald Griffin, Animal Engineering, San Francisco: The Rockefeller University - W.H. Freeman Com., s. 72-75.)</u> Yəni yarasanın havada uçan kiçik bir milçəyi hiss etməsi çıxardığı səslərin milçəyə dəyib geri qayıtmasıyla yaranan əks-sədaya əsaslanırdı. Bu sistemin nə məna verdiyini bir qədər düşünək. Yarasanın hidrolokatorla istiqamət müəyyənləşdirməsi yaydığı səslərin özünə geri qayıtma müddətləri arasındakı fərqi hesablaması sayəsində mümkün olur. Məsələn, yarasanın qaranlıq və boş bir otaqda yerdəki tırtılı ovlaması təcrübəsini xatırlayaq. Yarasanın tırtılın varlığını hiss etməsi belə reallaşır: Yarasa cır səslə çığırır və özünə gələn əks-sədalara görə otağının formasını müəyyənləşdirir. Yarasanın qışqırığı otağın döşəməsinə dəyib geri qayıdır, yarasa da bu gedib-gəlmə müddətinə görə döşəmənin özündən olan uzaqlığını müəyyənləşdirmiş olur. Tırtıl isə, otağın döşəməsi üzərində 0,5 ya da 1 sm-ə qədər yüksəklik meydana gətirər. Yəni tırtıl yarasaya döşəmədən 0,5 ya da 1 sm. qədər daha yaxındır. Həmçinin tırtıl çox yavaş da olsa hərəkət edir, bu da özünə dəyib əks olunan dalğaların tezliyini dəyişdirir. Yarasa, bu kiçik fərqləri belə hiss edərək yerdə bir tırtıl olduğunu anlaya bilər. Yarasa bu işi saniyədə 20 min dalğa yayıb, bunların hamısının əks-sədalarını analiz edərək görər. Üstəlik bu işi görərkən hərəkət halındadır. Bütün bunlar düşünüldükdə, bunların ağıllara durğunluq verəcək bir möcüzə olduqları aydın olar.

Yarasanın hidrolokatorunun sisteminin daha da fövqəladə bir tərəfi vardır. Yarasanın eşitmə sistemi yalnız öz səsini eşidəcək şəkildə yaradılmışdır. Heyvanın qəbul edə bildiyi tezlik intervalı çox kiçikdir, yəni ancaq müəyyən tezlikdəki səsləri qəbul edə bilər. Ancaq məhz bu nöqtədə çox əhəmiyyətli bir problem ortaya çıxır. Dopler effekti deyilən fizika qanununa görə, hərəkət halındakı cismə dəyən səsin tezliyi dəyişir. Buna görə də, yarasa özündən uzaqlaşan bir milçəyə doğru səs dalğalarını yaydığında, qayıdan səs dalğalarının tezliyi yarasanın eşidə bilmədiyi bir intervala düşəcək. Bu səbəblə də yarasa hərəkətli cisimləri hiss etməkdə böyük çətinliklər yaşamalıdır.

Amma belə olmaz. Yarasa hər cür cismi mükəmməl şəkildə hiss etməyə davam edər. Çünki yarasa, Dopler effektini bilirmiş kimi, hərəkət halındakı cisimlərə doğru göndərdiyi səs dalğalarını dəyişdirər. Məsələn, özündən uzaqlaşan milçəyə ən yüksək tezlikli səs dalğasını göndərər ki, səs geri qayıtdıqda eşitməyəcəyi qədər aşağı bir tezliyə enməsin.

Bəs onda bu tənzimləmə əməliyyatı necə baş verir?

Yarasanın beynində, hidrolokasiya sisteminə nəzarət edən iki fərqli tipdə neyron (sinir hüceyrəsi) vardır; bunlardan biri əks olunan ultrasəs dalğalarını hiss edər, digəri bəzi əzələlərə əmr verərək yarasanın çığırmasını təmin edər. Bu iki neyron beyində koordinasiyalı şəkildə çalışar; belə ki, əks-sədanın tezliyi dəyişəndə, birinci neyron bunu hiss edər və ikinci neyrona təzyiq göstərərək və ya onu xəbərdar edərək, qışqırığın tezliyinin əks-sədanın tezliyinə uyğun gəlməsini

təmin edər. Nəticədə mühitin vəziyyətinə görə yarasanın qışqırığının tezliyi dəyişər və ən səmərəli şəkildə istifadə edilər.

Bütün bu sistemin təkamül nəzəriyyəsinin "təsadüf" açıqlamasına endirdiyi zərbəni görməmək isə qeyri-mümkündür. Yarasadakı hidrolokasiya sistemi olduqca kompleks bir quruluşdur və əsla təsadüfi mutasiyalarla açıqlana bilməz. Sistemin işləyə bilməsi üçün, onun bütün incəlikləriylə və qüsursuz şəkildə var olması zəruridir. Yarasa həm yüksək tezliklərdə səs yayan struktura, həm bu səsləri qəbul edib, analiz edəcək orqanlara, həm də hərəkət dəyişikliklərinə görə tezliyi tənzimləyən sistemə sahib olmalıdır ki, sahib olduğu hidrolokator sistemi işə yarasın. Əlbəttə ki, bütün bunlar təsadüflərlə açıqlana bilməz və yarasanın qüsursuz bir şəkildə Allah tərəfindən yaradıldığını göstərər.

Elmi tədqiqatlar, yarasalardakı yaradılış möcüzələrinin yeni nümunələrini ortaya çıxarır. Ortaya hər yeni möcüzə çıxdıqda isə, elm dünyası bu fövqəladə sistemlərin necə işlədiyinin sirrini açmağa çalışır. Məsələn, ötən illərdə yarasalarla əlaqədar olaraq aparılan yeni bir tədqiqat ortaya çox maraqlı nəticələr çıxardı: ( J. A. Summer, Maria Torres, Scientific Researchs about Bats, Boston: National Academic Press, Eylül 1996, s. 192-195.) Mağarada yaşayan bir yarasa qrupunu tədqiq etmək istəyən elm adamları, qrup üzvlərinin bəzilərinə ötürücülər yerləşdirdilər. Gecə olduqda yarasalar çölə çıxaraq, gün doğana qədər gəzib qida ehtiyaclarını ödədilər. Elm adamları əllərindəki qəbul edicilərlə saatlar boyu davam edən bu səfəri izlədilər. Yarasaların vaxtaşırı şəkildə etdikləri bu səfərdən ötrü mağaradan 50-70 km qədər uzaqlaşdıqları müəyyənləşdirildi. Ancaq elm adamlarını təəccübləndirən əsl şey, günəşin doğulmasına yaxın yarasaların qayıtmağa başlaması oldu. Yarasalar qayıdarkən olduqları yerdən bilavasitə yuvalarına doğru uçdular. Bəs onda yarasalar mağaradan hansı istiqamətdə və nə qədər




aralı olduqlarını necə bilirdilər?.

Belə bir uçuşda istiqamətin necə təyin olunduğuna dair ətraflı məlumatlar hələ də əldə edilə bilmədi. Elm adamları, bu uçuşu həyata keçirən yarasaların eşitmə hissiyatının belə bir səfərdə elə də çox funksiya yerinə yetirə bilməyəcəyini düşünürlər. Eyni elm adamları, yarasaların kor olduqlarını da xatırladaraq, hər an özlərini təəccübləndirəcək qədər üstün olan yeni bir sistemlə qarşılaşa biləcəklərini ifadə edirlər. Bir sözlə elm, yarasa adını verdiyimiz canlılarda yeni yaradılış möcüzələri tapmağa davam edir.

## Delfinin Kəlləsindəki Hidrolokator

Bir delfin, zülmət qaranlıqdakı suda özündən 3 km uzaqda yan-yana dayanan iki ayrı metal pulu bir-birindən ayırd edə bilər. Görərəkmi?. Xeyr, bunu gözləri ilə etməz. Kəllənin altında yerləşən mükəmməl dizayn olunmuş hidrolokasiya sistemi, ona bu kimi dəqiq təsbitlər etmə imkanı verir. Beləliklə də, cisimlərin forması, böyüklüyü, sürəti və strukturları haqqında çox ətraflı məlumatlar əldə edə bilər.

Bir delfinin bu hidrolokasiya sistemindən istifadə etməyi öyrənməsi vaxt ala bilər. Təcrübəli bir delfin üçün göndərdiyi bir neçə "siqnal" nəticə almasına kifayət

etdiyi halda, gənclərin obyektləri müəyyənləşdirmələri üçün illərlə təcrübə aparmaları lazım gələ bilər.




Delfinlər hidrolokatorlarından yalnız ətrafları haqqında məlumat toplamaq üçün istifadə etmir. Bəzən 3-4 delfin bir balıq sürüsünün ətrafında üzər. Bu əsnada hamısı birdən yüksək səs dalğaları yayar. Bu dalğalar balıqların səndələməsinə səbəb olacaq qədər şiddətlidir. Delfinlərin bundan sonra görəcəkləri tək iş, səndələnən balıqları rahatlıqla ovlayıb yeməkdir. Yetkin bir delfin, insan qulağının eşidə bilməyəcəyi böyüklükdə (20 000 hers və daha artıq) səs dalğaları yayır. Bu dalğalar başının ön hissəsində yerləşən və "melon (qovun)" adlanan bir bölgədən qaynaqlanar. Heyvan başını hərəkət etdirərək dalğaları istədiyi istiqamətə doğru yönəldə bilər. Hidrolokator dalğası bir maneə ilə qarşılaşdığı zaman, dərhal əks olunaraq geri qayıdar. Alt çənə, reseptor vəzifəsi yerinə yetirərək əks-sədanı daxili qulağa ötürər. Alt çənə ilə daxili qulaq arasındakı sinus boşluqları isə, "lipid" adı verilən bir yağ birləşməsi ilə doludur. Bu yağ dalğanın qulağa ötürülməsi məqsədilə oraya yerləşdirilib. Daxili qulaq məlumatları beyinə göndərir. Bu məlumatlar beyində təhlil edilir və şərh olunur. Bənzəri lipid strukturları balinalardaki hidrolokatorlarda da mövcuddur. Əks olunan dalğalar fərqli lipidlərdən keçərkən fərqli xüsusiyyətlər göstərər. Bu xüsusiyyətlər qayıdan dalğaların şərh olunmasında açar rolunu oynayır. Lipidlər əks olunan dalğalardan istifadə edə bilmək üçün, doğru forma və sırada yerbəyer edilmək məcburiyyətindədirlər. Hər bir lipid özünə məxsus xüsusiyyətlərə sahibdir və normal balina yağından fərqlidir. Hər lipid çox sayda fermentin istifadə etdiyi kompleks kimyəvi əməliyyatlar nəticəsində yaradılır. Delfinin bu hidrolokasiya sisteminin təkamül nəzəriyyəsinin iddia etdiyi kimi mərhələli şəkildə meydana gəlməsi qeyri-mümkündür. Çünki lipidlər, tam şəkildə yaranana, doğru yerə və formaya gələnə qədər, işə yaraya bilməzlər. Balığın hidrolokasiya sisteminin işləməsi üçün alt çənəsinin, daxili qulaq sisteminin və beyindəki analiz mərkəzinin də qüsursuz şəkildə işləməsi lazımdır. Sistem "sadələşdirilməz kompleks" bir quruluşa malikdir və bu da mərhələli şəkildə meydana gəlməsinin qeyri-mümkün edir. Buna görə də, bu sistemin qüsursuz bir şəkildə Allah tərəfindən yaradılmış olduğu açıqdır.



## Allahın Qəzəbi Nədir və Kimədir?

**BƏQƏRƏ, 90:** Allahın, lütfünü qullarından istədiyinə endirməsini qısqanaraq Allahın nazil etdiyini inkar etmək üçün şəxsiyyətlərini satmaları necə də pisdir. Beləcə üst-üstə qəzəbə düçar oldular. Kafirlərə alçaldıcı bir əzab var.

**ALİ-İMRAN, 112:** Harada olursa olsunlar, -Allahın ipinə, ya da insanların ipinə (sözləşməsinə) sığınanlar xaric- alçaldılar. Allahın qəzəbinə layiq görüldülər və yoxsulluğa məhkum edildilər. Çünki onlar, Allahın ayələrini inkar edir və peyğəmbərləri haqsız yerə öldürürdülər. Bütün bunlar, qarşı gəlmələri və həddi aşmalarının bir nəticəsi idi.

**NİSA, 93:** Kim iman etmiş birisini qəsdən öldürərsə yeri, daimi qalacağı cəhənnəmdir. Allah ona qəzəb və lənət etmişdir. Və onun üçün böyük bir əzab hazırlanmışdır.

**MAİDƏ, 59:** De: "Ey Kitab əhli! Allaha, bizə nazil edilənə və öncəki nazil edilənlərə iman etdik deyəmi yoldan çıxan əksəriyyətinizlə bizə qarşı nifrət bəsləyirsiniz?"

**MAİDƏ, 60:** De: "Allah qatında bundan daha pis bir vəziyyəti sizə xəbər verimmi? Allah kimə lənət və qəzəb edərək meymunlar, donuzlar, bütpərəstlər halına salmışsa, bax o kimsələr yer baxımından daha pis və doğru yoldan ən çox azmış olanlardır.

**ƏRAF, 152:** Buzovu bütləşdirənlər, Rəblərindən bir qəzəbə və dünya həyatında bir alçaqlığa uğrayacaqdır. İftiraçıları belə cəzalandırırıq.

**ƏNFAL, 16:** Kim o gün, savaş taktikası və ya başqa bir birliyə qatılma məqsədindən başqa arxasını dönüb qaçarsa, Allahdan bir qəzəbə uğramışdır və yeri də cəhənnəmdir. Necə də pis bir dayanacaq yeridir.

**NƏHL, 106:** Qəlbi imanla dolu olduğu halda (inkar etməyə) məcbur edilən istisna olmaqla, imandan sonra inkar etməyə qəlbini açıb Allahı inkar edənlər, Allah tərəfindən bir qəzəbə layiqdirlər və onlar üçün böyük bir əzab vardır.

**TA HA, 80:** Ey İsrail oğulları! Sizi düşməninizdən qurtarmış, Sina dağının sağ yanında sizə söz vermiş və üzərinizə Mənna və bildirçin endirmişdik.

**TA HA, 81:** Sizə verdiyimiz ruzilərin yaxşılarından yeyin və bu mövzuda həddi aşmayın; yoxsa qəzəbimə uğrayarsınız. Qəzəbimə uğrayanlar isə alçalmışdır.

**TA HA, 86:** Musa, qəzəbli və məyus halda xalqının yanına döndü və, "Xalqım, Rəbbiniz sizə gözəl bir söz verməmişdimi? Gözləyə bilmədinizmi? Yoxsa Rəbbinizin qəzəbinə uğramaq üçünmü mənimlə etdiyiniz sözləşməni pozdunuz," dedi.

**ŞURA, 16:** Allahın dəvəti qəbul olunduqdan sonra Onun barəsində mübahisəyə girişənlərin dəlili Rəbbinin yanında boş şeydir. Onlar dünyada qəzəbə düçar olacaqlar. Axirətdə isə onları şiddətli əzab gözləyir.

**FƏTH, 6:** Həm də ona görədir ki, Allah Özü barəsində pis fikirdə olan münafiq kişi və münafiq qadınlara, müşrik kişi və müşrik qadınlara əzab versin. Onların pis niyyəti özlərini bəlaya salsın! Allahın onlara qəzəbi tutmuşdur. Allah onları lənətləmiş və onlar üçün Cəhənnəm hazırlamışdır. Ora nə pis dönüş yeridir.

## Allahın Nemət Verdiyi Kimlərdir?

**ZUXRUF, 57:** Məryəm oğlu örnək göstərilincə sənin xalqın sevincdən güldü.

**ZUXRUF, 58:** Onlar dedilər: "Bizim məbudlarımız yaxşıdır, yoxsa o?" Onlar bunu sənə yalnız höcət etmək üçün dedilər. Doğrusu, onlar höcətləşən adamlardır.

**ZUXRUF, 59:** O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur.

**NİSA, 69:** Allaha və elçisinə itaət edənlər, Allahın özlərinə yaxşılıq etdiyi peyğəmbərlər, təsdiqləyənlər, şəhidlər və salehlər ilə bərabərdirlər. Onlar nə gözəl

yoldaşdır.

**ƏNAM, 84:** Ona İshaqı və Yaqubu bəxş etdik. Hər birisinə yol göstərdik. Daha öncə də Nuha və onun soyundan Davuda, Süleymana, Əyyuba, Yusufa, Musaya və Haruna da yol göstərdik. Gözəl davrananları bax belə mükafatlandırırıq.

**ƏNAM, 85:** Zəkəriyya, Yəhya, İsa və İlyasa da... Hamısı da yaxşılardan idi.

**ƏNAM, 86:** İsmail, Əl-Yəsə, Yunus və Luta da... Hamısını insanlara üstün etdik.

**ƏNAM, 87:** Atalarından, soylarından və qardaşlarından bir çoxunu seçib doğru yola yönəltdik.

**ƏNAM, 88:** Allahın hidayəti belədir. Qullarından istədiyini və/ və ya istəyəni ona yetişdirir. Ortaq qoşsaydılar etdikləri boşa çıxardı.

**ƏNAM, 89:** Bax onlar, özlərinə kitab, hikmət və peyğəmbərlik verdiklərimizdir. Əgər bu xalq, bunları inkar edərsə, Biz onları inkar etməyən bir cəmiyyətlə yerlərini dəyişdirərik.

**ƏNAM, 90:** Bunlar, Allahın doğru yola yetişdirdikləridir. Onların yoluna tabe ol. De ki: "Mən buna qarşılıq sizdən heç bir ücrət istəmirəm. Bu, sadəcə bütün insanlara bir mesajdır."

## Dirildilməyəcəklərini Necə İddia Edərlər?

**ƏNAM , 29:** "Bizim üçün sadəcə dünya həyatı vardır, dirildiləcək deyilik," deyirdilər.

**HUD, 7:** O, hansınızın daha yaxşı iş görəcəyini sınamaq üçün göyləri və yeri altı gündə yaradandır. Hökmranlığı suyun üzərində idi. Buna rəğmən, kafirlərə, "Siz ölümdən sonra dirildiləcəksiniz," desən, kafirlər, "Bu, ancaq açıq-aşkar bir sehrdir (aldadıcı bir sözdür)," deyəcəklər.

**RƏD, 5:** Təəccüblənəcəksənsə, onların bu sözlərinə təəccüblənməlisən: "Biz torpaq olduqdan sonra yenidənmi yaradılacağıq?" Bax onlar, Rəblərini inkar edənlərdir. Onlar, boyunlarına qandallar vurulmağa layiq olanlardır. Onlar Atəşin əhlidir; həqiqətən orada əbədi qalacaqlar.

**NƏHL, 38:** "Allah ölən bir kəsi diriltməz" deyə bütün gücləriylə Allaha and içərlər. Xeyr, Onun verdiyi gerçək bir sözdür o. Ancaq insanların çoxu bunu bilmir.

**İSRA, 49:** Dedilər ki: "Sümük və xırda parçalanmış hala düşdükdən sonramı yeni bir yaradılışla dirildiləcəyik?!"

**İSRA, 50:** De ki: "İstər daş və ya dəmir olun,"

**İSRA, 51:** "Yaxud sizə görə qeyri-mümkün görünən bir formaya girin, fərq etməz." Buna qarşılıq, "Bizi kim geri döndərəcək," deyəcəklər. De ki: "Sizi ilk öncə kim yaratdısa O!" Sonra başlarını sallayıb, "Yaxşı, nə zaman?" deyəcəklər. De ki: "Bəlkə düşündüyünüzdən daha yaxın..."

**İSRA, 52:** Sizi çağıracağı gün, siz Ona təriflə qarşılıq verərsiniz və çox qısa bir müddət qaldığınızı anlayarsınız.



**İSRA, 98:** Ayələrimizi yalanladıqları, "Sümük və xırdalanmış torpaq olduqdan sonra biz yeni bir yaradılışla dirildiləcəyik?" dedikləri üçün cəzaları budur.

**NƏML, 67:** Kafirlər dedilər: "Məgər biz və atalarımız torpağa qarışdıqdan sonra qəbirlərdən çıxardılacağıq?

**NƏML, 68:** Bu dirilmə həm bizə, həm də əvvəllər atalarımıza vəd olunmuşdu. Bu, keçmişdəkilərin uydurduğu əfsanələrindən başqa bir şey deyildir".

**SƏCDƏ, 10:** Onlar deyirlər: "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" Doğrusu, onlar öz Rəbbi ilə qarşılaşacaqlarını inkar edirlər.

**SƏCDƏ, 11:** De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!"

**SƏBA, 7:** Kafirlər dedilər: "Çürüyüb parça-

parça olduqdan sonra yenidən yaradılacağınızı xəbər verən bir kişini sizə göstərəkmi?

**SƏBA, 8:** Əcəba, o, Allahın əleyhinə yalanmı quraşdırır, bəlkə onda divanəlik var?" Xeyr! Axirətə inanmayanlar əzaba düçar olacaq, dərin bir azğınlıq içində qalacaqlar.

**YA-SİN, 78:** O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim diriltdə bilər?"

**YA-SİN, 79:** De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir.

**SAFFAT, 16:** Məgər biz öldükdən, sür-sümük olub torpağa çevrildikdən sonra dirildiləcəyikmi?

**SAFFAT, 17:** Ya da atalarımızmı dirildiləcəklər?"

**SAFFAT, 18:** De: "Bəli, özü də, zəlil günə qalmış olduğunuz halda dirildiləcəksiniz".

**SAFFAT, 19:** Bu, təkcə dəhşətli bir səs olacaq və onlar qəfildən dirilib görməyə başlayacaqlar.

## Allahdan Başqa Nələrə İbadət Etdilər?

**ALİ-İMRAN, 64:** De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"

**ALİ-İMRAN, 151:** Gücsüz və iqtidarsız şəxsləri Allaha ortaq qoşduqlarına görə, inkar edənlərin qəlblərinə qorxu salacağıq. Yerləri atəşdir. Zalımların dayanacağı yer necə də pisdir!

**NİSA, 36:** Allaha qulluq edin, Ona heç bir şeyi və kimsəni ortaq qoşmayın. Ana-ataya, yaxınlara, yetimlərə, yoxsullara, yaxın və uzaq qonşuya, yanınızdakı yoldaşa, yolçuya (müsafirə) və andlarınızın / razılaşmalarınızın (müqavilələrinizin) haqq sahibi olduqlarına yaxşı davranın. Allah özünü bəyənmiş təkəbbürlü şəxsləri sevməz.

**NİSA, 171:** Kitablılar! Dininizdə həddi aşmayın. Allah haqqında yalnız gerçəyi söyləyin. Məryəm oğlu İsa Məsih, sadəcə Allahın elçisi və Məryəmə göndərdiyi kəlməsi və Ondan gələn bir candır. Allaha və elçilərinə iman edin. "Üçdür!" deməyin. Öz xeyriniz üçün buna son verin. Tək tanrı yalnız Allahdır! O, övlad sahibi olmaqdan ucadır. Göylərdə və yerdə nə varsa, Onundur. Vəkil olaraq Allah yetər.

**ƏNAM , 74:** İbrahim atası Azərə belə demişdi: "Heykəlləri tanrı qəbul edirsiniz? Səni və xalqını bütünlüklə açıq -aşkar bir azğınlıq içində görürəm."

**ƏNAM , 75:** Qəti bir inanca sahib olması üçün, İbrahimə göylərin və yerin səltənətini beləcə göstərdik:

**ƏNAM , 76:** Gecənin qaranlığı onu bürüdükdə o, bir planet gördü, "Bu mənim Rəbbimdir!" dedi. Batınca, "Mən batanları sevmirəm," dedi.

**ƏNAM , 77:** Ayı doğarkən görüncə, "Budur mənim Rəbbim!" dedi. Batınca da, "Rəbbim mənə doğru yolu göstərməzsə, azanlardan olaram," dedi.

**ƏNAM , 78:** Günəşi doğarkən görüncə, "Budur mənim Rəbbim. Bu daha böyükdür!" dedi. O da batınca: "Ey xalqım, mən sizin ortaq qoşduğunuz şeylərdən uzağam," dedi.

**ƏNAM , 79:** Mən üzümü tamamilə, göyləri və yeri yaradana çevirdim və mən ortaq qoşanlardan deyiləm.

**ƏNAM , 80:** Xalqı onunla mübahisə etdi. "Məni doğruya yönəltdiyi halda, mənimlə hələ də Allah haqqında mübahisəmi edirsiniz? Sizin ortaq qoşduqlarınızdan qorxmuram, ancaq Rəbbim bir şey diləyərsə... Rəbbim biliyi ilə hər şeyi əhatə etmişdir. Öyüd almırsınız?"

**ƏNAM , 81:** "Allahın özləri haqqında sizə heç bir dəlil vermədiklərini Ona ortaq qoşmaqdan qorxmadığınız halda, mən necə ola bilər ki, sizin ortaq qoşduqlarınızdan qorxa bilərəm? Hansı tərəf təhlükəsizliyə daha çox layiqdir? Bir bilsəniz!"

**ƏNAM , 100:** Allaha cinləri ortaq qoşdular. Halbuki onları O yaratmışdır. Bilmədən Ona oğullar və qızlar yaraşdırdılar. Onun şanı Ucadır, onların dəyərləndirmələrindən çox Üstündür.
**ƏRAF, 191:** Bir şey yarada bilməyən, əksinə yaradılmış olan şeylərimi ortaq qoşurlar?
**ƏRAF, 192:** Bütlər, nə onlara yardım edə bilər, nə də özlərinə yardım edə bilərlər.
**ƏRAF, 193:** Onları doğruya çağırsanız sizə uymazlar. Onları çağırsanız da, sussanız da, sizin üçün eynidir.
**ƏRAF, 194:** Allahdan başqa çağırdıqlarınız, sizin kimi qullardır. Haydı, sözünüzdə doğrusunuzsa, onları çağırın, sizə cavab versinlər.
**ƏRAF, 195:** Üzərində yeriyə biləcəkləri ayaqlarımı var? Tutmaları üçün əllərimi var? Görmələri üçün gözlərimi var? Eşitmələri üçün qulaqlarımı var? De ki: "Ortaqlarınızı çağırın və mənim üçün plan qurun. Heç dayanmayın!"
**TƏVBƏ, 31:** Din bilənlərini, din adamlarını və Məryəm oğlu Məsihi Allahdan ayrı rəblər qəbul etdilər. Halbuki, yalnız tək Tanrıya qulluq etməklə əmr olunmuşdular. Ondan başqa Tanrı yoxdur. O, tay tutduqları kimsələrdən də çox Ucadır.
**NƏHL, 98:** Quran oxuduğunda qovulmuş şeytandan Allaha sığın!
**NƏHL, 99:** İman edib Rəblərinə güvənənlərə onun bir gücü yoxdur.
**NƏHL, 100:** Onun gücü, onu (özünə) dost seçənlərə və onu Rəblərinə ortaq qoşanlaradır.
**KƏHF, 102:** İnkar edənlər, Məndən başqa qullarımı vəlilər seçərək qurtulacaqlarınımı sandılar? O inkar edənlərin qalacağı yer olaraq cəhənnəmi təyin etdik.
**ƏNBİYA, 52:** Atasına və xalqına, "Özünüzü həsr etdiyiniz bu heykəllər də nə olan şeydir?" dedi.
**ƏNBİYA, 53:** "Atalarımızı onlara sitayiş edərkən gördük," dedilər.
**ƏNBİYA, 54:** "Doğrusu, siz və atalarınız açıq - aşkar bir azğınlıq içinə düşmüsünüz," deyincə
**ƏNBİYA, 55:** "Bizə gerçəyimi gətirdin, yoxsa oyunmu oynayırsan?" dedilər.
**ƏNBİYA, 56:** Dedi ki, "Əslində sizin Rəbbiniz (Sahibiniz) göylərin və yerin Rəbbidir; onları ayıraraq yaratmışdır. Mən buna şahidlik edənlərdənəm."
**ƏNBİYA, 57:** "Allaha and içirəm ki, siz gedən kimi, ardınızdan heykəllərinizə qarşı bir plan quracağam."
**ƏNBİYA, 58:** Hamısını parça-parça etdi; ancaq bəlkə ona müraciət edərlər deyə ən böyüklərinə toxunmadı.
**ƏNBİYA, 59:** "Hər kim tanrılarımıza bunu etdisə, gerçək bir zalımdır!" dedilər.
**ƏNBİYA, 60:** "Onları dilinə dolayan bir cavan oğlan (olduğunu) eşitdik, ona İbrahim deyilirmiş," dedilər.
**ƏNBİYA, 61:** "Onu camaatın hüzuruna çıxarın ki, şahid olsunlar," dedilər.
**ƏNBİYA, 62:** "İbrahim, tanrılarımıza bunu sənmi etdin?" dedilər.
**ƏNBİYA, 63:** "Xeyr, o işi bax bu böyükləri etdi. Onlardan soruşun, əgər danışa bilirlərsə!" dedi.
**ƏNBİYA, 64:** Öz vicdanlarına dönüb, öz-özlərinə bunu söylədilər: "Gerçəkdən sizlər haqsızsınız."
**ƏNBİYA, 65:** Sonra təkrar köhnə fikirlərinə döndülər (və dedilər): "Bunların danışmadığını sən çox yaxşı bilirsən!"
**ƏNBİYA, 66:** "Allahın yanında sizə heç bir faydası və zərəri toxunmayan şeylərəmi ibadət edirsiniz?" dedi.
**ƏNBİYA, 67:** "Vay olsun Sizə və Allahla yanaşı sitayiş etdiklərinizə. Ağlınızı istifadə etmirsiniz?"
**ƏNBİYA, 68:** "Bir şey edəcəksinizsə onu yandırın ki, tanrılarınızı dəstəkləmiş olun," dedilər.
**NƏML, 23:** Mən onlara padşahlıq edən, özünə hər şey verilmiş və çox böyük bir taxtı olan bir qadın gördüm.
**NƏML, 24:** Mən onun və tayfasının Allahı qoyub günəşə səcdə etdiklərinin şahidi oldum. Şeytan onların əməllərini özlərinə gözəl göstərmiş və onları haqq yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər.

**NƏML, 25:** Şeytan ona görə belə etmişdir ki, göylərdə və yerdə gizli olanı aşkara çıxardan, sizin gizlətdiklərinizi də, üzə çıxartdıqlarınızı da Bilən Allaha səcdə etməsinlər.

**SƏBA, 40:** O gün Allah onların hamısını toplayacaq, sonra da mələklərə buyuracaq: "Bunlar sizəmi ibadət edirdilər?"

**SƏBA, 41:** Mələklər deyəcəklər: "Sən paksan, müqəddəssən! Onlar deyil, Sənsən bizim Hamimiz! Xeyr, onlar cinlərə ibadət edirdilər. Əksəriyyəti də məhz onlara iman gətirmişdi".

**ZUMƏR, 3:** Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– deyirlər. Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz.

**NUH, 23:** və özlərinə tabe olanlara dedilər: "Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!"

## Allahdan Başqa Bütlərə Necə İbadət Etdilər?

**ƏNAM, 40:** De: "Doğrusunuzsa söyləyin görüm, sizə Allahın əzabı, yaxud Saat (dünyanın sonu) gəlsə, Allahdan başqasınamı yalvararsınız?"

**ƏNAM, 41:** Doğrusu, Yalnız Ona yalvararsınız. İstəyərsə yalvardığınız mövzudakı probleminizi aradan qaldırar, siz də ortaq qoşduqlarınızı unudarsınız.

**ƏNAM, 94:** "Sizi ilk dəfə yaratdığımız kimi Bizə tək olaraq gəldiniz. Sizə xəyal kimi göstərdiyimiz şeyləri ardınızda buraxdınız. Haqqınızda (veriləcək qərarda Tanrı ilə) ortaq davranacaqlarını irəli sürdüyünüz şəfaətçilərinizi yanınızda görmürük. Aranızdakı bağlar kəsilmişdir. İrəli sürdükləriniz sizi tərk etmişdir."

**ƏNAM, 136:** Allahın yaratdığı əkinlərdən və mal-qaralardan Ona bir pay ayıraraq, (öz) başlarına görə, "Bu Allahın, bu da ortaqlarımızındır," dedilər. Ortaqlarının payı Allaha yetişmir; ancaq Allahın payı ortaqlarına yetişir! Necə də pis hökm verirlər.

**ƏNAM, 137:** Beləcə, onların (Tanrı adından hökm verən) ortaqları, övladlarını öldürməyi belə müşriklərin (ortaq qoşanların) çoxuna yaxşı bir şeymiş kimi göstərdilər. Beləcə onları məhv etdilər və dinlərini qarışdırıb pozdular. Allah istəsəydi bunu edə bilməzdilər. Onlardan və uydurduqları şeylərdən uzaq dur.

**YUNUS, 18:** Allahı buraxıb, özlərinə nə zərər, nə də fayda verə bilməyənlərə ibadət edirlər və: "Bunlar, Allah yanında bizə şəfaət edəcəklər," deyirlər. De ki: "Allahın göylərdə və yerdə bilmədiyi şeylərimi Ona bildirirsiniz? O çox Ucadır, ortaq qoşduqlarınızdan uzaqdır."

**YUNUS, 66:** Göylərdə və yerdə nə varsa Allahındır. Allahdan başqalarına yalvaranlar əslində qoşduqları ortaqları izləməməkdədirlər. Onlar sadəcə təxmin irəli sürürlər və sadəcə cəfəngiyyat danışırlar.

**YUNUS, 105:** Və: "Monoteist (Təkallahlı) olaraq dinə yönəl; ortaq qoşanlardan olma."

**YUNUS, 106:** "Allahı buraxıb, sənə fayda və zərər verə bilməyənləri çağırma. Belə etsən o zama zalımlardan olarsan.

**İBRAHİM, 30:** Allahın yolundan azdırmaq üçün Ona ortaqlar qoşdular. De ki: "Bir az əylənin, son yolçuluğunuz atəşə olacaqdır."

**NƏHL, 35:** Ortaq qoşanlar, "Allah istəməsəydi, nə biz, nə də atalarımız Ondan başqa bir şeyə ibadət etməz və Onun haram etdiyindən başqasını da haram etməzdik." (deyirlər.) Onlardan öncəkilər də bu cür davranmışdı. Elçinin açıq şəkildə bildirməkdən başqa bir görəvimi var?

**NƏHL, 86:** Ortaq qoşanlar, ortaq qoşduqları kimsələri gördükləri zaman, "Rəbbimiz, Səndən başqa çağırdığımız ortaqlarımız bax bunlardır," deyərlər. (Onlar da), "Siz yalançılarsınız (biz sizin bu günahınıza heç bir zaman ortaq

olmadıq)," deyə qarşılıq verərlər.

**MƏRYƏM, 41:** Kitabda İbrahimi xatırla; peyğəmbər olan bir doğruçu idi.

**MƏRYƏM, 42:** Atasına, "Atacan, eşitməyən, görməyən və sənə bir faydası olmayan şeylərə niyə ibadət edirsən?" demişdi.

**MƏRYƏM, 43:** "Atacan, mənə, sənə gəlməyən bir bilik gəldi. Məni təqib et ki, səni düzgün yola yönəldim."

**MƏRYƏM, 44:** "Atacan, şeytana ibadət etmə. Şeytan, Rəhmana qarşı çıxmışdır."

**MƏRYƏM, 45:** "Atacan, Rəhman tərəfindən cəzalandırılman və şeytana dost olmandan qorxuram."

**MƏRYƏM, 46:** (Atası:) "İbrahim, sən mənim tanrılarımdan üzmü çevirirsən? Buna son qoymasan, səni daşqalaq edəcəyəm. Məndən uzaqlaş!" dedi.

**MƏRYƏM, 47:** "Sənə salam (sülh) olsun! Sənin bağışlanman üçün Rəbbimə yalvaracağam; O, mənə qarşı çox mərhəmətlidir."

**MƏRYƏM, 48:** "Sizdən və Allahdan başqa yalvardıqlarınızdan ayrılıram. Mən Rəbbimə yalvarıram. Ümid edirəm ki, Rəbbimə yalvarmaqla bəxtsiz (bədbəxt) olmaram."

**NƏML, 23:** Mən onlara padşahlıq edən, özünə hər şey verilmiş və çox böyük bir taxtı olan bir qadın gördüm.

**NƏML, 24:** Mən onun və tayfasının Allahı qoyub günəşə səcdə etdiklərinin şahidi oldum. Şeytan onların əməllərini özlərinə gözəl göstərmiş və onları haqq yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər.

**ƏNKƏBUT, 8:** Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq. Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etsələr, onlara güzəştə getmə. Dönüşünüz Mənə olacaq, Mən də bütün etdikləriniz barədə sizə xəbər verəcəyəm.

**LOĞMAN, 15:** Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr, onlara güzəştə getmə! Dünyada onlarla gözəl davran. Mənə üz tutanların yolu ilə get! Sonra isə dönüşünüz Mənə olacaq, Mən də nə etdikləriniz barədə sizə xəbər verəcəyəm.

**MUMİN, 42:** Siz məni Allahı inkar etməyə, bilmədiyim bir şeyi Ona şərik qoşmağa çağırırsınız, mən isə sizi Qüdrətli və Bağışlayan Allaha çağırıram.

**MUMİN, 73:** Sonra da onlara deyiləcəkdir: "Haradadır şərik qoşduqlarınız –

**MUMİN, 74:** Allahdan başqa ibadət etdikləriniz?" Onlar deyəcəklər: "Onlar bizi qoyub qaçdılar. Xeyr, biz öncə də heç bir şeyə ibadət etmirdik!" Allah kafirləri beləcə azğınlığa salar.

**ŞURA, 13:** Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin tövhid müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və Ona üz tutanı Özünə tərəf yönəldər.

**ŞURA, 21:** Yoxsa onların Allahın dində izin vermədiyi şeyləri onlar üçün şəriət qanunu edə bilən şərikləri vardır? Əgər həlledici Söz olmasaydı, aralarındakı iş bitmiş olardı. Həqiqətən, zalımları ağrılı-acılı bir əzab gözləyir.

**CİN, 18:** Şübhəsiz ki, məscidlər Allahındır. Allahdan başqa heç kəsə dua etməyin!

**CİN, 19:** Allahın qulu qalxıb Allaha dua etdikdə cinlər az qala onun dövrəsində bir -birinə keçib çəpər yaradırdılar.

**CİN, 20:** De: "Mən yalnız öz Rəbbimə dua edirəm və kimisə Ona şərik qoşmuram!"

## Hz. Nuh Peyğəmbər

Nuh Peyğəmbər də digər peyğəmbərlər kimi qövmünü, yəni yaşadığı cəmiyyəti doğru yola çağırmışdır. Allaha inanmalarını, hər şeyin Yaradıcısının Allah olduğunu, başqa şeylərə tapınmamalarını, əks halda Allahın onları cəzalandıracağını söyləmişdir. Bu hadisə Quranda belə bildirilir:

Biz Nuhu öz xalqına elçi göndərdik (O dedi): "Həqiqətən, mən sizin üçün ancaq açıq-aydın xəbərdar edən (bir elçiyəm). Allahdan başqasına ibadət etməyin! Mən sizi yaxalayacaq məşəqqət gününün əzabından qorxuram".
(Hud surəsi, 25-26)

Lakin özünə çox az insan inanmışdır. Bundan ötrü də, Allah Nuh peyğəmbərə böyük bir gəmi düzəltməsini əmr etmişdir. İnananların bu gəmi sayəsində xilas olacağını bildirmişdir.



Nuh peyğəmbərin, ətrafda dəniz olmadığı halda, gəmi düzəltməsi Allaha inanmayanları çox təəccübləndirmiş və buna görə də onunla lağ etmişdirlər. Halbuki inanmayanlar başlarına gələcəkləri bilmir, lakin Allah bilir.

Gəmi hazır olduqdan sonra, günlərlə davam edən çox şiddətli yağışlar yağmağa başlamış, hər tərəfi sular bürümüş, qurular sanki dənizə çevrilməyə başlamışdır. O vaxt baş verən bu fəlakət indiki vaxtda elm adamları tərəfindən də təsdiqlənmişdir. Orta Şərq bölgəsində indi dağ olan bir çox ərazinin bir vaxtlar sularla örtülü olduğuna dair dəlillər tapılmışdır.

Televiziyada müxtəlif ölkələrdə yaşanan sel fəlakətlərini görmüsünüz. Belə fəlakətlərdə, insanlar damlara çıxıb kömək gəlməsini gözləyərlər, onlara ancaq motorlu qayıqlarla və ya vertolyotlarla kömək çatdıra bilərlər. O dövrdə isə hz. Nuhun gəmisindən başqa onları xilas edəcək heç nə olmamışdır. Məhz Nuh peyğəmbərin dövründə baş verən və "Nuh tufanı" adlandırılan bu hadisə, o dövrdəki peyğəmbərə inanmayan, inancsız insanları cəzalandırmaq üçün Allahın xüsusi olaraq verdiyi cəzadır. Allahı dinləməyən, Onun Nuh peyğəmbər vasitəsilə göndərdiyi xəbərdarlıqlara qulaq asmayan, özündən razı, pis xarakterli insanların heç biri bu gəmiyə minməmiş, özlərini Allahdan başqa şeylərin qoruyacağını güman etmişdirlər. Allaha deyil, başqa varlıqlara güvənmişdirlər.

Halbuki Allah istəməsə bizi heç nə qoruya bilməz. Bu həqiqəti bilməyən insanlar təpələrə, yüksək yerlərə çıxmalarına baxmayaraq, nəhəng dalğalar onlara da çatmış və beləliklə də, boğulmuşdurlar.



Çox az sayda insan Allaha inanıb güvənmiş, Nuh peyğəmbərlə birlikdə gəmiyə minmiş və xilas olmuşdur. Özləri ilə birlikdə Allahın əmri ilə müxtəlif növ heyvanların erkək və dişisindən götürmüşdürlər. Quranda bu mövzu belə bildirilir:

Onlardan əvvəl Nuh qövmü yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı sayıb: "O, dəlidir!" dedilər və ona hədə-qorxu gəldilər.
O, Rəbbinə yalvarıb: "Məni üstələdilər! *(Mənə)* kömək et!"-dedi.
Biz göyün qapılarını leysan yağışı ilə açdıq.
Yeri yarıb bulaqlar qaynatdıq.
*(Göydən tökülən və yerdən çıxan)* sular əzəldən yazılmış bir iş üçün bir-birinə qovuşdu.
Biz onu taxtalardan pərçimlənib mismarlanmış gəmidə daşıdıq.
İnkar edilmiş *(peyğəmbərə)* mükafat olaraq o *(gəmi)* Gözlərimiz önündə üzüb gedirdi.
Biz onu *(nəsillərə)* ibrət üçün saxladıq. Amma heç bir yada salan varmı?
*(Görəydin)* Mənim əzabım və qorxutmağım necə oldu!
(Qamər surəsi, 9-16)

Bütün peyğəmbərlər göndərildikləri cəmiyyətlərə bənzəri şəkildə eyni məlumatları çatdırıblar və onları Allaha ibadət etməyə çağırıblar. Bu vəzifələrini yerinə yetirərkən də həmin insanlardan hər hansı qarşılıq istəməyiblər. Çünki Allahın sözlərini öz cəmiyyətlərinə çatdıran bu insanların heç bir mənfəətləri yoxdur. Yalnız Allah onlara bu vəzifəni verdiyi üçün və Allahı çox sevdikləri, Onun da özlərini sevməsini istədikləri və Ondan qorxub çəkindikləri üçün bunu yerinə yetirərlər və bu əsnada başlarına bir çox hadisə gələr; sıxıntıya, əziyyətə, böhtana məruz qalarlar. Hətta keçmişdə bəzi peyğəmbərlər inkarçılar tərəfindən öldürülmək istənilmiş, içlərindən öldürülənlər də olmuşdur. Ancaq peyğəmbərlər yalnız Allahdan qorxan insanlar olduqları üçün, qarşılaşdıqları heç bir çətinlik onları doğru yoldan döndərə bilməmişdi. Yaşadıqları çətinliklərin qarşılığını Allahın dünyada və ölümdən sonrakı axirət həyatında tam şəkildə verəcəyini heç vaxt unutmamışdırlar.

## Hz. İbrahim Peyğəmbər

Bu seriyada Quranda adı keçən bütün peyğəmbərlərdən bəhs etməyəcəyik. Lakin, Quranda bəzi xüsusiyyətləri xüsusi şəkildə vurğulanan peyğəmbərlərin həyatlarından nümunələr verəcəyik.

Hz. İbrahim də bu peyğəmbərlərdən biridir. O, hələ çox gənc yaşda olarkən və ətrafında özünə Allahın varlığından danışan heç kəs olmadığı halda,

öz-özünə səmanı araşdıraraq bütün varlıqları Allahın yaratdığını görmüşdü. Bu mövzu Quranda belə bildirilir:

Gecənin qaranlığı onu bürüdükdə o, ulduz görüb: "Bu mənim Rəbbimdir!"– dedi. O batdıqda isə: "Mən batanları sevmirəm!"– dedi. Doğan ayı gördükdə: "Bu mənim Rəbbimdir!"– dedi. O batdıqda isə: "Əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən azmış adamlardan olardım"– dedi. Doğan günəşi gördükdə: "Bu mənim Rəbbimdir, bu daha böyükdür!"– dedi. O batdıqda isə dedi: "Ey qövmüm! Həqiqətən, mən sizin *(Allaha)* şərik qoşduqlarınızdan uzağam! Doğrudan da mən, hənif olaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm". **(Ənam surəsi, 76-79)**

Eləcə də, İbrahim peyğəmbər də yaşadığı cəmiyyəti Allahdan başqasına tapınmamaları üçün belə xəbərdar etmişdir:

Onlara İbrahimin əhvalatını da oxu. Bir zaman o, öz atasına və tayfasına: "Nəyə ibadət edirsiniz?"– demişdi. Onlar dedilər: "Biz bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik". O dedi: "Onlara yalvardığınız zaman sizi eşidirlərmi? Yaxud sizə xeyir və ya zərər verirlərmi?" Onlar dedilər: "Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük". O dedi: "Siz nəyə ibadət etdiyinizi görürsünüzmü – həm siz, həm də ulu babalarınız? Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir. O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir; O Rəbb ki, məni yedirdir və içirdir; O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir; O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir; O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram. **(Şuəra surəsi, 69-82)**

Hz. İbrahim, o dövrdəki padşaha və xalqa, yuxarıdakı kimi; "Allaha iman edin" deyərək dini izah etdikdən sonra, ona düşmən olanlar onu öldürməyə cəhd etdilər. Böyük alovlu od yandırıb hz. İbrahimi içinə atdılar. Lakin Allah onu qorudu və onu odun içindən sapsağlam çıxartdı. Bu hadisə Quranda belə bildirilir:



Qövmünün cavabı isə ancaq: "Ya onu öldürün, ya da yandırın!"– demələri oldu. Lakin Allah onu oddan qorudu. Doğrudan da, bunda mömin adamlar üçün (mənimsəməli bir) ibrət vardır. **(Ənkəbut surəsi, 24)**

Biz: "Ey od! İbrahim üçün sərin və zərərsiz ol!"– dedik. **(Ənbiya surəsi, 69)**

Hər şeyi yaradan və nəzarət edən Allahdır. Od da Allahın əmri ilə İbrahim peyğəmbəri yandırmamışdı. Məhz bu, Allahın möcüzəsidir. Allahın gücünün hər şeyə çatdığını çox yaxşı göstərən nümunələrdən biridir. Çünki yer üzündəki hər şey Allahın izni ilə baş verər. O, istəmədiyi müddətcə insana heç nə zərər verə bilməz, heç kəs başqa bir insanı öldürə bilməz. Allah Quranda belə bildirir:

Hər bir kəs ancaq Allahın izni ilə, əzəldən müəyyən edilmiş bir vaxtda ölür... (Ali-İmran surəsi, 145)

Allahın İbrahim peyğəmbər üçün istədiyi ölümün vaxtı gəlmədiyi üçün, oda atılmasına baxmayaraq ölməmiş, Allah onu oradan xilas etmişdir.

Allah, Quranın digər bir ayəsində də İbrahim peyğəmbərin çox üstün əxlaqa sahib olduğunu belə bildirir:

Həqiqətən, İbrahim həlim, *(Allaha)* çox yalvaran və Ona üz tutan bir şəxs idi. (Hud surəsi, 75)

Allah yaxşı xasiyyətli və özünə çox bağlı olan insanları sevər. Bu ayədən də anladığımız kimi, alicənab olmaq, üsyankar ruhlu olmamaq, Allahın əmrlərinə tam təslimiyyətlə riayət etmək Allah qatında çox əhəmiyyətli xüsusiyyətlərdəndir.

## Hz. Musa Peyğəmbər

Hz. Musa da Quranın bir çox yerində yaşadığı hadisələrdən bəhs edilən bir peyğəmbərdir. Özünə müqəddəs kitablardan biri olan Tövrat göndərilmişdir. Lakin



Tövrat, Musa peyğəmbərin ölümündən sonra insanlar tərəfindən dəyişdirildiyi üçün dövrümüzdə əsil halı yoxdur. Amma dəyişdirilmiş formasını yəhudilər hələ də müqəddəs kitab sayaraq oxuyurlar. Dövrümüzdəki yəhudilərin oxuyub inandıqları bu kitab, Musa peyğəmbərin gətirdiyi müqəddəs kitab olmadığı üçün onlar doğru inanca sahib deyildirlər.

Biz hz. Musanın həyatı və gözəl əxlaqı ilə əlaqədar bütün məlumatları Qurandan öyrənirik. Quranda bildirildiyinə görə, qədim Misir hökmdarları "Firon" adlanırdı. Bunların bir çoxu Allaha inanmayan, özlərini müqəddəs insan hesab edən, çox təkəbbürlü insanlardı. Musa peyğəmbəri də Allah bu fironların ən zalımlarından birinin yanına göndərmişdi.

Bizə hz. Musanın həyatından xəbər verən ayələri oxuyarkən diqqət yetirməli olduğumuz əhəmiyyətli bir mövzu, taledir. Hz. Musanın Fironun sarayına göndərilməsi hadisəsi belə baş vermişdir:

Tam hz. Musanın doğulduğu əsnada, Firon zalım bir əmr vermiş və ölkəsindəki bütün oğlan uşaqlarının öldürülməsini istəmişdir. Hz. Musa da ölüm təhlükəsiylə üzləşmişdir. Ancaq Allah hz. Musanın anasına oğlunu suya buraxmasını söyləmiş və sonunda onu Fironun götürəcəyini və onun özünə geri qayıdıb peyğəmbər olacağını bildirmişdi. Anası hz. Musanı bir sandığın içinə yerləşdirərək suya buraxdı.



Çayda sərbəst şəkildə hərəkət edən bu sandıq bir müddət sonra Fironun arvadı tərəfindən tapıldı və hz. Musa hələ körpə vaxtında böyüdülmək üçün saraya aparıldı.



Beləliklə də, Firon, gələcəkdə özünə Allahı tanıdacaq, yanlış fikirlərinə qarşı çıxacaq insanı, bilmədən yanına almış və böyütmüşdür. Hər şeyi bilən Allah, Fironun hz. Musanı çayda tapıb, onu sarayında böyüdəcəyini də bilir.

Hz. Musa doğulanda onun bir sandıq içində suya buraxılacağı, Fironun onu tapacağı, axırda isə hz. Musanın bir peyğəmbər olacağı bəlli idi. Çünki Allah onun taleyini bu cür yazmışdı. Allah bunu hz. Musanın anasına bildirmişdir.

Burada hz. Musanın həyatının hər anının ən incə nöqtəsinə qədər Allah Qatında taledə müəyyənləşdirilmiş olduğu və eynilə müəyyənləşdirildiyi kimi gerçəkləşdiyinə diqqət yetirilməlidir.

Hz. Musa böyüdükdən sonra Misirdən ayrıldı, bir müddət başqa bir ölkədə yaşadı və sonra da Allah onu peyğəmbərlik vəzifəsini verdi. Eləcə də, Musa peyğəmbərə köməkçi olaraq qardaşı hz. Harunu göndərdi.

İkisi birlikdə bu zalım Fironun qarşısına çıxıb Allahı və Onun əmrlərini çatdırdılar.



Musa peyğəmbərin gördüyü iş çox çətin idi. Çünki Allahı inkar edən çox zalım bir hökmdarın qarşısına

çıxıb çəkinmədən onu, Allahı tanımağa və Ona ibadət etməyə çağırmışdı. Quranda hz. Musanın bu çağırışı belə bildirilir:

Onlardan sonra Musanı möcüzələrimizlə Firon və onun əyanlarına elçi göndərdik. Onlar isə bunu inkar etdilər. Bir gör fəsad törədənlərin aqibəti necə oldu. Musa dedi: "Ey Firon! Həqiqətən, mən aləmlərin Rəbbi tərəfindən *(göndərilmiş)* bir elçiyəm. Mənim borcumdur ki, Allah barəsində yalnız həqiqəti deyim. Mən Rəbbinizdən sizə açıq-aydın dəlillər gətirmişəm. Elə isə İsrail oğullarını mənimlə göndər".
**(Əraf surəsi, 103-105)**

Firon isə özünü bəyənmiş və təkəbbürlü bir insan idi. Bütün gücün özündə olduğunu zənn edərək Allaha üsyan etmişdi. Halbuki Firona bu gücü, mal-dövləti və torpaqları verən də Allahdır. Amma Firon ağılsız olduğu üçün bu həqiqəti anlaya bilməmişdi.



Hz. Musaya qarşı çıxan və iman etməyən Firon, daha əvvəl də söylədiyimiz kimi, çox zalım bir insan idi. Musa peyğəmbərə inanan cəmiyyəti (İsrail oğullarını) əsir tutur, onları kölə olaraq işlədirdi. Sonunda Fironun hz. Musanı və bütün inananları yox etməyi düşündüyü aydın olduqda bu cəmiyyət hz. Musanın başçılığı altında Misirdən qaçdı. İsrail oğulları və hz. Musa, önlərinə çıxan dənizlə arxalarından gələn Fironun ordusu arasında qaldılar. Amma Musa peyğəmbər belə çıxılmaz kimi görünən bu vəziyyətdə belə qətiyyən ümidini və Allaha olan güvənini itirmədi. Allah bir möcüzə yaradaraq inanların keçməsi üçün dənizi iki yerə ayıraraq bir yol açdı.



Bu, Allahın Musa peyğəmbərə verdiyi böyük möcüzələrindən biridir. İman edənlər keçdikdə dəniz əvvəlki halına qayıtdı, beləliklə də, onları təqib edən Firon və ordusu suda boğuldu.



Allah Quranda bu möcüzəvi

hadisəni belə bildirir:

*(Bunların əməli)* Firon nəslinin və onlardan əvvəlkilərin əməlinə bənzəyir. Onlar Rəbbinin ayələrini yalan hesab etdilər, Biz də onları günahlarına görə məhv etdik. Firon nəslini dənizdə qərq etdik. Onların hamısı zalım idi. (Ənfal surəsi, 54)

Öləcəyini anladığı zaman Firon Allaha inandığını söyləyərək özünü qurtarmasını istəmişdir. Lakin son andakı bu peşmançılığı fayda verməmişdir. Çünki Allah etdiyimiz xətalardan, ancaq səmimi olaraq peşmançılıq hissi duyacağımız təqdirdə bizi bağışlayacağını bildirmişdir. Allah çox bağışlayandır. Amma insanın öləcəyini anladığı vaxtkı peşmançılıq hissi, səmimi və gec olmadan duyulan peşmançılıq hissi olmadığından fayda verməyə bilər. Fironun da başına bu gəlmişdir. Onda biz bunu unutmamalıyıq: Həyatımız boyu Allahın məmnun olacağı şəkildə yaşamalı və Fironun etdiyi xətanı etməməliyik. Çünki həyatımızı Qurana uyğun gözəl əxlaqla yaşamasaq, Quranda əmr edilənlərə əməl etməsək, ölüm anında peşman olmağımız fayda verməyə bilər.

## Hz. Yunus Peyğəmbər

İnsan nə qədər çətin və çarəsiz vəziyyətdə qalsa da, daim Allaha güvənməli və Ondan kömək istəməlidir. Bir qədər əvvəl də bəhs etdiyimiz kimi, Musa peyğəmbər Fironun ordusu ilə önlərindəki dəniz arasında qaldıqda əsla ümidsizliyə qapılmamış və Allaha güvənmişdi. Məhz Yunus peyğəmbərin davranışı da belə gözəl davranışın nümunələrindəndir.

Yunus peyğəmbər əvvəlcə Allahın özünə verdiyi vəzifəyə baxmayaraq, xəbərdar etməli olduğu cəmiyyəti tərk etmişdi. Bundan ötrü də, Allah onu müxtəlif sınaqlardan keçirtdi. Hz. Yunus əvvəlcə mindiyi gəmidəki insanlar tərəfindən dənizə atıldı.



Sonra dənizdə onu nəhəng bir balıq uddu. Bu hadisələr nəticəsində hz. Yunus etdiklərinə görə peşman oldu və Allaha sığınıb ona dua etdi. Quranda bu hadisə belə bildirilir:

Zün-Nunu da *(yada sal!)* Bir zaman o qəzəbli *(qövmündən)* ayrılıb getmiş və ona gücümüz çatmayacağını güman etmişdi. Sonra da zülmətlər içində yalvarıb demişdi: "Səndən başqa heç bir ilah yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!" Biz onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Biz möminləri belə xilas edirik! (Ənbiya surəsi, 87-88)

Əgər hz. Yunus Allaha güvənib,

ona dua etməsəydi, başına bir hadisə gələcəkdi. Belə ki, Allah bu hadisəni Quranda belə bildirmişdir:

Əgər o, Allaha tərif deyənlərdən olmasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı. O, halsız olduğu vəziyyətdə onu sahilə çıxartdıq. Onun başı üstündə balqabaq tağı bitirdik. Biz onu yüz mindən də daha çox adama *(peyğəmbər)* göndərdik.

(Saffat surəsi, 143-147)

Allah Yunus peyğəmbəri tamamilə çıxılmaz kimi görünən bir vəziyyətdən xilas etmişdir. Bu, Allahdan heç vaxt ümid kəsilməyəcəyinə dair açıq bir işarədir. Quranda bildirilən bu hadisələri oxuyub öyrəndiyimizə görə hər nə çətinliklə qarşılaşsaq da, daim Allaha dua edib Ondan kömək diləməliyik.

## Hz. Yusuf Peyğəmbər

Quranda Yusuf peyğəmbərin yaşadığı hadisələr çox geniş və ətraflı şəkildə izah edilmişdir. Burada qısa şəkildə izah edib, hz. Yusufun əxlaqından necə nümunə götürməli olduğumuzu görəcəyik.

Hz. Yusuf, Yaqub peyğəmbərin oğullarından biridir. Qardaşları onu qısqandıqları üçün, onu kiçik yaşında çöldə bir quyuya atıb atalarına da; "onu canavar yedi" deyərək yalan danışmışdırlar. Quyudan su çəkən bir karvan onu tapıb Misirdə bir idarəçinin sarayına aparmışdır. Orada yaşadığı bir hadisədən ötrü böhtana məruz qalıb zindana atılmış və illərlə zindanda qalmışdır.

Sonra günahsız olduğu aydınlaşmış, zindandan çıxarılmış, çox etibarlı və ağıllı bir insan olduğu üçün Misirdə xəzinələrin başına gətirilmiş, idarəçi olmuşdur. Bir vaxtlar özünə əziyyət vermiş qardaşlarını da bağışlamışdır.

Yusuf Peyğəmbər çox üstün əxlaqa sahibdir. Allah onu bir dəfə sınamış, quyu kimi qurtulması qeyri -mümkün görünən bir yerdən çıxardıb ən sonunda onu üstün bir mövqeyə gətirmişdir. Yusuf peyğəmbər başına gələn hər hadisə qarşısında Allaha dua etmiş, Ona üz tutmuşdur. Günahsız olmasına baxmayaraq, illərlə zindanda qaldığı halda, bunun Allahın imtahanı olduğunu unutmamışdır. Zindanda olarkən yanındakılara daim Allahın gücündən və böyüklüyündən danışmışdır. Bu qədər çətin şərtlər altında Allaha olan güvən və bağlılığını qoruması, bizə onun çox üstün əxlaq sahibi olduğunu göstərir.



*"O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

# TÖVRATDAN:

## İman Gətirənlər Allah Sevgisindən və İmandan Qaynaqlanaraq Xoşbəxtdir

Fəqət mən bol məhəbbətin naminə evinə gələcəyəm, Üz tutub müqəddəs məbədinə qorxu ilə səcdə edəcəyəm ... Sənə pənah gətirənlərsə qoy sevinsin, Qoy Səni daima mədh etsinlər, Çünki onları Sən qoruyursan. Səni sevənlər sevincdən cuşa gəlsin! (Zəbur, 5:7,11)

Bütün ürəyimlə Rəbbə şükür edəcəyəm, Bütün xariqələrini deyəcəyəm. **Sənə görə fərəhimdən sevinib cuşa gələcəyəm**, Ey Haqq-Taala, ismini tərənnüm edəcəyəm! (Zəbur, 9:1-2)

Rəbbə əbədilik üz tutmuşam, Sağımda olduğu üçün sarsılmaram. **Elə bunun üçün qəlbim sevinir, ruhum şad olur**, Cismim əmin-amanlıqda yaşayır. Çünki məni ölülər diyarına atmazsan, Mömin insanını qəbirə salmazsan. Mənə həyat yolunu öyrədirsən, Doyunca sevinc Sənin hüzurundadır, Sağ əlində hər zaman səadət var. (Zəbur, 16:8-11)

Onda Allahın qurbangahına, Sevincim, fərəhim olan Allahımın yanına gedərəm. Lira çalıb Sənə şükür edərəm, Ey Allah, mənim Allahım. (Zəbur, 43:4)

Ey bütün xalqlar, əl çalın, **Cuşa gəlib Allaha nida edin!** Haqq-Taala Rəbb necə də zəhmlidir, Bütün yer üzünün böyük Padşahıdır! (Zəbur, 47:1-2)

Ey Allah, mənim Allahım Sənsən, Sənin üçün yaman qəribsəmişəm. Quraq, cansıxıcı, susuz bir diyarda Sənsiz könlüm susuzdur. Bütün varlığımla həsrətini çəkirəm. (Zəbur, 63:1)

Mənim dilim Səni tərənnüm edir, Məhəbbətin bu həyatdan gözəldir. Bütün ömrüm boyu Sənə alqış edəcəyəm, Əllərimi qaldırıb adınla Səni səsləyəcəyəm. Sanki yağlı yeməklə canım tox olacaq, Dilim Səni mədh edəcək, ağzım həmd oxuyacaq. Yatanda belə, Səni xatırlayıram, Gecə növbələrində Səni düşünürəm. Sən mənə kömək oldun, Qanadlarının kölgəsində Sənə mədh oxuyacağam. Könlüm Sənə bağlanır, Sağ





*“O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar.” (Bəqərə surəsi, 4)*

əlin məni möhkəm tutur. (Zəbur, 63:3-8)
Ey Ordular Rəbbi, məskənin nə qədər əzizdir, Qəlbim Rəbbin həyətinin həsrətindədir, Könlüm, cismim var olan Allaha mədh oxuyur. Ey Ordular Rəbbi, Padşahım, Allahım, Qurbangahının yaxınında sərçələr yurd salar, Qaranquş bala çıxartmaq üçün yuva qurar. Nə bəxtiyardır evində yaşayanlar, Daim Sənə həmd oxuyanlar! Sela (Zəbur, 84:1-4)
**Xanna Rəbbə belə dua etdi: “Rəbdə tapdığım sevincdən ürəyim cuşa gəlir**, Rəbb mənə böyük güc verir, Düşmənlərimin önündə öyünürəm, Çünki Sən məni qurtardığına görə sevinirəm. Rəbbə oxşar ikinci müqəddəs yoxdur, Ey Rəbb, yeganəsən Sən! Allahımız kimi sığınacaq qaya yoxdur!”
(Birinci Şamuel, 2:1-2)

## İman Gətirənlər Bir-Birilərini Sevər və Bir-Birilərinin Vəlisidir

Ordular Rəbbi belə deyir: “Düzgün və ədalətlə mühakimə edin. **Hər kəs bir-birinə məhəbbət və mərhəmət göstərsin.**” (Zəkəriyyə, 7:9)
Daha qorxmayın, mən həm sizi, həm də övladlarınızı saxlayacağam. “Yusif onlara ürəklərincə olan sözlərlə təsəlli verdi.”
(Yaradılış, 50:21)
Rəbb Haruna dedi: “Musanı qarşılamaq üçün səhraya get.” Harun gedib Allahın dağında qardaşına rast gəldi və onunla öpüşdü. (Çıxış, 4:27)

Lavan bacısı oğlu Yaqubun gəldiyini eşidəndə onu qarşılamağa qaçdı. **Onu qucaqlayıb öpdü** və evinə gətirdi. Yaqub hər şeyi Lavana danışdı. Lavan ona dedi: **“Sən, doğrudan da, mənim sümüyümdən, mənim ətimdənsən.”** Yaqub onun yanında bir ay qaldı.
(Yaradılış, 29:13-14)
Esav Yaqubu qarşılamaq üçün **qaçıb onu qucaqladı və boynuna sarılıb öpdü**... Esav dedi: “Mənim sürüm çoxdur, qardaşım, səndə olan sənin olsun.” Yaqub dedi: “Yox, xahiş edirəm, indi gözündə lütf tapdımsa, məndən bu hədiyyələri götür. Çünki sənin üzünü görəndə Allahın üzünü görmüş sandım, mənə qarşı çox xeyirxah oldun. **Xahiş edirəm, sənə gətirilən hədiyyələri götür**. Çünki Allah mənə lütf etdi və indi mənim hər şeyim var.” Yaqub təkid etdikdən sonra Esav hədiyyələri götürdü. (Yaradılış, 33:4,9-11)
Yanındakı soydaşın yoxsullaşıb və özünü təmin edə bilmirsə, ona yardım et...
(Levililər, 25:35)
Soydaşının eşşəyini, paltarını yaxud itirdiyi başqa şeyləri tapanda da bu cür etməlisən. Özünü görməməzliyə vurma. Görəndə ki soydaşının eşşəyi yaxud öküzü yolda yıxılıb, özünü görməməzliyə vurma. Mütləq heyvanı ayağa qaldırmaq üçün soydaşına kömək et.
(Qanunun Təkrarı, 22:3-4)
...Soydaşınız üçün xəsislik etməyin, ona kömək etməkdən boyun qaçırmayın. Yoxsa kasıb soydaşınız sizdən Rəbbə şikayət edər və günah qazanarsınız.



*"O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

Kasıba səxavətlə, könüllü surətdə yardım edin, çünki buna görə Allahınız Rəbb bütün əməyinizə, əl atdığınız hər işə bərəkət verəcək. ... Ölkədə həmişə kasıblar olacaq, buna görə mən sizə belə əmr edirəm: mütləq öz ölkənizdəki kasıb və möhtac soydaşınıza qarşı əliaçıq olun. (Qanunun Təkrarı, 15:9-11)

Hər kəs qonşusuna kömək edir, **Qardaşına "Cəsur ol!" deyir**. (Yeşaya, 41:6)

Yediyiniz çörəyi acla bölüşdürmək, Yurdsuz kasıbları evinizə gətirmək deyilmi? Mənim istədiyim oruc bu deyilmi? Çılpaq görəndə geyindirmək, Yaxınlarınızdan köməyinizi əsirgəməmək deyilmi? Onda nurunuz şəfəq kimi saçacaq, Tezliklə şəfa tapacaqsınız... (Yeşaya, 58:7-8)

Onlara belə dedi: "İndi öz çadırlarınıza çoxlu var-dövlətlə qayıdırsınız. Özünüzə xeyli heyvan, qızıl-gümüş, tunc, dəmir və çoxlu paltar götürmüsünüz. Düşmənlərinizdən qarət etdiyiniz bu malı **soydaşlarınıza paylayın**." (Yeşua, 22:8)

Nehemya da onlara dedi: "Gedin, yağlı yemək yeyin, şirin içki için və hazırlıqlı olmayanlara da pay göndərin, çünki bu gün Xudavəndimiz üçün müqəddəsdir... Bütün xalq yeyib-içməyə, paylar göndərməyə və böyük şənlik etməyə getdi. Çünki xalq ona deyilənləri başa düşdü. (Nehemya, 8:10-12)

Davudla birlikdə gedən adamlar arasında olan bütün pis və yaramaz adamlar belə dedilər: "Onlar bizimlə birlikdə getmədikləri üçün biz də qurtardığımız talan malından onlara heç nə verməyəcəyik. Ancaq hər adama öz arvad-uşaqlarını verəcəyik. Qoy onları götürüb buradan getsinlər." Amma Davud onlara belə dedi: **Xeyr, qardaşlarım! Rəbbin bizə verdiyi şeylərlə belə etməyəcəksiniz**. Bizi qoruyan Rəbdir və üstümüzə gələn basqınçıları O bizə təslim etdi. Davud bütün İsrail üçün o gündən bu günə qədər davam edən bir qanun və hökm yaratdı. (Birinci Şamuel, 30:22-23, 25)





*“O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar.” (Bəqərə surəsi, 4)*

# İNCİLDƏN:

## Allahın Hər Şeyi Görən, Eşidən və Bilən Olması

Siz onlara bənzəməyin! **Çünki Allahınız nələrə ehtiyac duyduğunuzu siz daha Ondan diləmədən əvvəl bilər.** (Matta, 6:8)

**Allahın görmədiyi heç bir varlıq yoxdur. Özünə hesab verəcəyimiz Allahın gözləri qarşısında hər şey çılpaq və açıqdır.** (İbranilərə, 4:13)

**Harada iki ya da üç nəfər Mənim adımla toplansa, Mən də orada onların arasındayam.** (Matta, 18:20)

Beş sərçə iki qara pula satılmırmı? **Amma bunların biri belə Allah Qatında unudulmur. Necə ki, başınızdakı saçlar belə tək-tək sayılıdır...** (Luka, 12:6-7)

İnsanların şahidliyini qəbul edirik, halbuki Allahın şahidliyi ən üstündür. (1 Yəhya, 5:9)

**O günü və saatı [qiyamət günü və saatını], nə göydəki mələklər nə də elçi bilər; Allahdan başqa kimsə bilməz.** (Matta, 24:36)

Allahın zənginliyi, müdrikliyi və məlumatı nə dərindir!... (Romalılara, 11:33)

## Allahın Hər Şeyin Daxilindən, Gizli Tərəflərindən Xəbərdar Olması

**... O [Allah], qaranlığın gizlədiklərini aydınlığa çıxaracaq, ürəklərdəki niyyətləri aşkar edəcək.** O zaman hər kəs Allahdan payına düşən tərifi alacaq. (1 Korinflilərə, 4:5)

**[Allah Qatında] Müəyyən olmayacaq gizli heç bir şey yoxdur, bilinməyəcək və aydınlığa çıxmayacaq gizli bir şey yoxdur.** (Luka, 8:17)

Allahın sözü diri və təsirlidir... Canla ruhu, iliklə oynaqları bir-birindən ayıracaq qədər dərinlərə işləyər; **ürəyin düşüncələrini və məqsədlərini mühakimə edər.** (İbranilərə, 4:12)

O da onlara belə dedi: “Siz insanlar qarşısında özünüzü təmizə çıxarırsınız, amma Allah ürəyinizi bilir. İnsanların qürurlandıqları nə varsa, Allah bəyənməz.” (Luka, 16:15)

Amma siz dua edəcəyiniz zaman otağınıza çəkilib qapını örtün və gizlidə olan Allaha dua edin. **Gizlilik içində edilən görən Allah sizi mükafatlandıracaq.** (Matta, 6:6)



## Allahın Sonsuz Güc və Qüdrət Sahibi Olması

İsa onlara baxaraq, “İnsanlar üçün bu qeyri - mümkündür, amma Allah üçün



*“O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar.” (Bəqərə surəsi, 4)*

hər şey mümkün” dedi. (Matta, 19:26)

... **O, hər şeyin üzərində hökm sürən, sonsuza qədər təriflənəcək Allahdır.** (Romalılara, 9:5)

İki sərçə bir qara pula satılmırmı? **Amma Allahın icazəsi olmadan bunlardan biri belə yerə düşməz.** (Matta, 10:29)

... Hökmranlıq, güc və ucalıq sonsuzlara qədər Sənindir!... (Matta, 6:13)

... **Gücü hər şeyə çatan Rəbb Allah, sənin işlərin böyük və heyrətlənəcək işlərdir...** (Vəhy, 15:3)

...**Qurtuluş, ucalıq və güc Allahımıza aiddir.** Çünki Onun mühakimələri doğru və ədalətlidir... Çünki gücü hər şeyə çatan Rəbb Allahımız hökmranlıq edir. (Vəhy, 19:1-6)

**Hər şeyi Öz istəyi istiqamətində təşkil edən Allahın məqsədinə uyğun olaraq əvvəldən təyin olunub...** seçildik. (Efeslilərə, 1:11)

**Allahın edə bilməyəcəyi heç bir şey yoxdur.** (Luka, 1:37)

... **Allahdan [Allaha aid] olmayan rəhbərlik yoxdur. Var olanları Allah qurmuşdur.** (Romalılara, 13:1)

... Rəbb belə deyir: **“Varlığım haqqı üçün hər diz önümdə çökəcək və hər dil Allah olduğumu açıqca söyləyəcək.”** (Romalılara, 14:11)

**Mübarək və tək Hökmdar...** ölümsüzlüyün tək sahibi... heç bir insanın görmədiyi və görə bilməyəcəyi Allah, Məsihi təyin olunan zamanda ortaya çıxaracaq. **Qürur və qüdrət sonsuza qədər Onun [Allahın] olsun.** (1 Timoteyə, 6:15-16)

Allahın qulu Musanın nəğməsini və Quzunun nəğməsini oxuyaraq söyləyirdilər: “Hər şeyə **gücü çatan Rəbb Allah Sənin işlərin böyük və möcüzəvi işlərdir.** Ey xalqların Hökmdarı, Sənin yolların doğru və ədalətlidir. Ya Rəbb, Səndən kim qorxmaz, adını kim ucaltmaz? Çünki müqəddəs olan tək Sənsən. Bütün xalqlar gəlib Sənə qulluq edəcəklər...” (Vəhy, 15:3-4)

**Hər şeyin qaynağı Odur; hər şey Onun tərəfindən və Onun üçün var oldu. Sonsuza qədər Ona ucalıq olsun.** (Romalılara, 11:36)

Allah bizdə təsirli olan qüdrətiylə, **dilədiyimiz ya da düşündüyümüz hər şeydən daha çoxunu edə biləcək gücdədir.** (Efeslilərə, 3:20)

... **Hər şey Allahdandır.** (1 Korinflilərə, 11:12)

## Allahın Tək Güc və İradə Sahibi Olması

**Əgər özünə... [Allahdan] verilməzsə, heç kim özbaşına bir şey ala bilməz.** (Yəhya, 3:27)

... **İsa, Rəbbin gücü sayəsində xəstələri yaxşılaşdırırdı.** (Luka, 5:17)

İsa onlara, “Hər kəs bu sözü qəbul edə bilməz, **ancaq Allahın güc verdiyi kəslər** qəbul edə bilər” dedi. (Matta, 19:11)

İki sərçə bir qara pula satılmırmı? **Amma Allahın icazəsi olmadan bunlardan biri belə yerə düşməz.** (Matta, 10:29)

İman yoluyla, lütflə xilas oldunuz. **Bu**



*"O kəslər ki, sənə göndəriləne (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

**sizin müvəffəqiyyətiniz deyil, Allahın hədiyyəsidir.** Kimsənin öyünməməsi üçün yaxşı işlərin mükafatı deyil. **Çünki biz Allahın əsəriyik, Onun əvvəldən hazırladığı yaxşı işləri etmək üçün... yaradıldıq.** (Efeslilərə, 2:8-10)

Dinləyin indi, "Bu gün, ya da sabah filan şəhərə gedəcəyik, orada bir il qalıb ticarət edəcəyik və pul qazanacağıq" deyən sizlər, sabah nə olacağını bilmirsiniz. Həyatınız nədir ki? Qısa bir müddət görünən və sonra itən buxar kimisiniz. **Bunun yerinə, "Rəbb dilərsə yaşayacağıq, bunu onu edəcəyik" deməlisiniz.** (Yaqub, 4:13-15)

**Çünki Güclü Olan [Allah], mənim üçün böyük işlər etdi.** Onun adı müqəddəsdir. (Luka, 1:49)

... Göydən çörəyi Musa vermədi. **Sizə göydən gerçək çörəyi verən Rəbbimdir.** (Yəhya, 6:32)

**Çünki "Yer üzü və içindəki hər şey Rəbbindir."** (1 Korinflilərə, 10:26)

**"Bu səbəblə məhsulun sahibi Rəbbə yalvarın,** məhsulunu qaldıracaq işçilər göndərsin." (Matta, 9:38)

Sizləri məhkəməyə verdikləri zaman, nəyi necə söyləyəcəyinizi düşünərək narahat olmayın. Nə söyləyəcəyiniz o anda sizə bildiriləcək. **Çünki danışan siz olmayacaqsınız, Rəbbinizin Ruhu sizin vasitəçiliyinizlə danışacaq.** (Matta, 10:19-20)

**Tək xilaskarımız Allah, sizi düşməkdən saxlayacaq, Öz uca hüzuruna böyük sevinc içində ləkəsiz olaraq çıxaracaq gücdədir...** (Yəhuda, 24-25)

Halbuki tək Qanun qoyan, tək Hakim vardır; **xilas etməyə də, məhv etməyə də gücü çatan Odur [Allahdır].** (Yaqub, 4:12)

Əhəmiyyətli olan, əkən ya da sulayan deyil, əkiləni böyüdən Allahdır... (1 Korinflilərə, 3:7)

Hər hansı bir şeyi öz müvəffəqiyyətimiz olaraq saymağa yetərliyik demək istəmirəm; **bizi yetərli edən Allahdır.** (2 Korinflilərə, 3:5)






# 2 AYƏDƏ BAŞQA 1 AYƏNİN BİRLƏŞMƏSİ:

**QAF: 45**
**Şübhəsiz ki, dirildən də, öldürən də Bizik.** *(Axır)* **dönüş də Bizim hüzurumuzadır!**

**YUNUS: 36**
**Onların əksəriyyəti ancaq zənnə uyar, zənn isə əsla həqiqət ola bilməz. Allah nələr etməkdə olduğunuzu biləndir!**

**1) Hicr, 23:**
**Həqiqətən, dirildən də, öldürən də Bizik,** (hər şeyə) varis olan da Bizik.

**2) Ənbiyya, 35:**
Hər bir kəs ölümü dadacaqdır. Yoxlamaq məqsədilə Biz sizi şər və xeyirlə imtahana çəkərik. Və siz ancaq **Bizim hüzurumuza qaytarılacaqsınız!**

**1) Nəcm, 28:**
**Onlar** buna dair heç bir şey bilmir, **yalnız zənnə qapılırlar. Zənn isə əsla həqiqət ola bilməz!**

**2) Nur, 41:**
Məgər göylərdə və yerdə olanların, qanadlarını açıb uçan quşların Allahı təqdis edib şəninə təriflər dediklərini görmürsənmi?! Allah onlardan hər birinin duasını, şükür-sənasını bilir. **Allah onların nə etdiklərini biləndir!**

*“Bu (Quran), aləmlər üçün ancaq bir öyüddür! Siz onun verdiyi xəbəri bir müddət sonra mütləq biləcəksiniz.” (Sad surəsi 87-88)*



# 3 AYƏDƏ BAŞQA 1 AYƏNİN BİRLƏŞMƏSİ:

**ƏNAM: 106**

**Rəbbindən sənə vəhy edilənə** *(Qurana)* **tabe ol. Ondan başqa heç bir tanrı yoxdur. Müşriklərdən isə üz çevir!**

**1) <u>ƏHZAB, 2:</u>**
**Rəbbindən sənə vəhy olunana** *(Qurana)* **tabe ol.** Allah, şübhəsiz ki, nə etdiklərinizdən xəbərdardır!

**2) <u>DUXAN, 8:</u>**
**Ondan başqa heç bir tanrı yoxdur.** O həm dirildir, həm də öldürür. O həm sizin Rəbbiniz, həm də ulu babalarınızın Rəbbidir.

**3) <u>HİCR, 94:</u>**
Sənə əmr olunanı *(Quranı)* açıq-aşkar təbliğ et və **müşriklərdən üz döndər!**

**RUM: 19**

*(Allah)* **ölüdən diri, diridən də ölü çıxardır, öləndən sonra torpağı dirildir. Siz də belə çıxardılacaqsınız.**

**1) <u>ƏNAM, 95:</u>**
Şübhəsiz ki, toxumu da, çəyirdəyi də cücərdib çatladan, **ölüdən diri, diridən də ölü çıxardan Allahdır.** Budur Allah! Axı siz Ondan nə cür döndərilirsiniz?

**2) <u>HƏDİD, 17:</u>**
Bilin ki, Allah **torpağa öldükdən sonra təzədən can verir.** Biz ayələri sizə belə müfəssəl izah etdik ki, bəlkə, ağlınız başınıza gəlsin!

**3) <u>ZUXRUF, 11:</u>**
O Allah ki, göydən bir qədər su endirdi. Biz onunla ölü bir məmləkəti dirildirik. **Siz də belə çıxardılacaqsınız!**

## HAQQI YILMAZIN ARAŞDIRMALARINA ƏSASƏN QURANDAKI BƏZİ SÖZLƏRİN MƏNALARI

**FİL ƏSHABI**, Qurana görə, şər planları ucbatından Allah tərəfindən həlak edilmiş bir cəmiyyətdir. Ərəb və İslam mənbələrinə görə "Əshabı-fil" Həbəşistanın Yəmən valisi Əbrəhənin sərkərdəliyi altındakı bir ordunun adıdır. Heybətini artırmaq məqsədi ilə bu ordunun önündə Həbəşistandan gətirilən bir fil gedirdi.

Tarixi mənbələrə görə, VI əsrin ortalarında Həbəşistanın Yəmən valisi olan Əbrəhə, ərəblərin Kəbəyə necə ehtiram göstərdiklərini görmüş, dini, siyasi və iqtisadi qayələrlə Sana şəhərində əl-Qulleys adında möhtəşəm bir kilsə tikdirmiş və ərəbləri bu kilsəni ziyarət etməyə səsləmişdi. Ərəblər bu dəvəti qəbul etməmişdilər, onlardan biri isə Əbrəhənin kilsəsini təhqir məqsədi ilə kirlətmişdi. Bundan çox qəzəblənən Əbrəhə, Kəbəni dağıtmaq məqsədi ilə ordusuyla birgə Məkkəyə hücuma keçmişdir. Ordunun önündə bir fil getdiyi üçün bu hadisəyə "Fil hadisəsi", bu hadisənin meydana gəldiyi ilə isə "Fil ili" deyilmişdir. "Əshabı-fil" sözünün lüğət mənası "axmaqlar, ağılsızlar dəstəsi" deməkdir. Burada bu ifadə ikibaşlı işlədilmişdir.

**CİN VƏ İNS** sözləri Quranda ilk dəfə "Nas" surəsində işlədildiyinə görə, bu sözlər haqqında qısa məlumat vermək istəyirik. *Cin* – xalqın inanışında "insan kimi yeyib -içən, çoxalan, inanan, bəzən bu işin əhli olan insanlar tərəfindən işlədilən, fövqəladə gücə və biliklərə sahib olan, insanları vuran, istədiyi insana ziyan verən, böyük mənəvi duyğulara ilham verən gizli dəstək gücü, görünməyən məxluq" kimi bilinir. Bu səbəbdən Quran da səhv başa düşülməkdədir. *Cin* sözü əslində "örtülü məxluq; insanın beş duyğu orqanı ilə hiss edə bilmədiyi, dərk edilə bilməyən, varlığı şübhə götürməyən varlıq yaxud güc" deməkdir. Bu sözün zidd mənalısı olan *ins* [*insan*] isə "beş duyğu orqanı ilə hiss edilə bilən, bilinən, görünən, tanınan, rabitə qurulan, yox olmayan, həmişə meydanda olan" deməkdir. Bildiyimiz bu sözlər də *cin* sözündən əmələ gəlmişdir: *cənnət* [torpağı ağac yarpaqlarıyla gizlənmiş yer], *cinnət* [ağlın, düşüncənin gizlənməsi, dəli olmaq], *cənin* [ana bətnində gizləndiyi üçün belə adlanır], *cünnət* [döyüşdə istifadə olunan qalxan, döyüşçünü ox və mizraq zərbələrindən qoruyub gizlətdiyi üçün belə adlanır].

Quranda *cin* sözünün "mikroorqanizmlər, elektrik, maqnit, şüa, radiasiya, casus, kim olduğu bilinməyən, yad şəxs" kimi mənalarda işlədildiyini görəcəyik. Bir də, Quranda *ins* və *cin* sözlərinin birgə işlədildiyini görürük. Zidd mənalı bu iki söz birgə işlədildiyində, sözlər başqa mənalar kəsb edir, mənaca zənginləşir.

Zidd mənalı iki sözdən daha geniş mənalar əldə etmək üsuluna bütün dillərdə rast gəlmək mümkündür. Məsələn: gecə-gündüz, yaş-quru, canlı-cansız, it-pişik, səhər-axşam, yer-göy, yaxşı-pis, acı-şirin, sağ-sol, irəli-geri, aşağı-yuxarı, en-boy, ağ-qara, irili-xırdalı, dünya-axirət kimi zidd mənalı sözlər birgə işlədildiyində, sözlərin ayrı-ayrılıqda mənasından daha fərqli və geniş mənalar qazanır.

Bir-birinə zidd mənalar daşıdığını gördüyümüz *ins* və *cin* sözləri, birgə işlədildiyində "gördüyümüz-görmədiyimiz, bildiyimiz-bilmədiyimiz, tanıdığımız-tanımadığımız, hər kəs və hər şey" mənasını verir. Quranda buna çox sayda misal var.

Lüğət mənası "örtünmək, gizlənmək, alışmaq və bəndəlik" demək olan **İLAH** sözü, ümumiyyətlə "ibadət edilən, tapınılan, ucaldılan" şeylərin ortaq adına çevrilmişdir. İlah sözünə "ehtiyacları aradan qaldıran, işlənən əməlin əvəzini verən, sükunət və arxayınlıq bəxş edən, ucalıq, öz hökmü altına alaraq qoruyan, müsibət zamanı qoruyan" mənalarının

verilməsini, bu sözün "ibadət edilən varlıq" mənasında işlədilməsinin səbəbi olaraq göstərmək mümkündür.

Quranda ilah sözü həm "haqq və yaxud batil ayırmadan, insanların tapındığı varlıq" mənasında, həm də "həqiqətən ibadətə layiq olan haqq məbud" mənasında işlədilmişdir.

**Səməd** - Bir çox mənası olan *səməd* sözünün tərcüməsini bir sözlə vermək mümkün deyil. *Səməd* sözünün aşağıdakı mənaları var: bütün ehtiyaclar üçün müraciət edilən ağa, böyük; içində boşluq olmayan, içinə bir şey qoymaq mümkün olmayan, heç bir şeyə ehtiyacı olmayan; hər şeyi bilən; həlim; şan və şərəfi zirvədə olan; hər şeyi yaradan; arzu edilən işlərdə müraciət edilən, yalvarılan, sıxıntılı anlarda kömək istənilən; istədiyini edən, istədiyi hökmü verən, verdiyi hökmlər barəsində heç kim tərəfində sorğu-sual edilə bilməyən, hökmü heç kim tərəfindən ləğv edilə bilməyən; yeganə şərəfli zat; qəni / varlı; qullarının üstündə qahir olan, özündən yuxarıda heç kim olmayan, özündən aşağıdakılara ehtiram göstərməsinə ehtiyac olmayan; bütün ehtiyaclarda özünə müraciət edilən; yeməyən, içməyən, doyuzduran, ancaq doyuzdurulmayan; yaratdıqları yox olduqdan sonra da baqi qalan; əbədi və əzəli olan; ölməyən, varisi olmayan; yuxlamayan və oyandırılmayan; heç kimin sifətləri ilə tərif edilməsi mümkün olmayan; eybi, əskiyi, nöqsanı olmayan; başına bəla gəlməyi mümkün olmayan; sifətlərində və işlərində ən mükəmməl olan; daim qalib gələn, əsla məğlub olmayan; xüsusiyyətləri barədə məxluqların hər hansı bir məlumata sahib ola bilmədiyi, gözlərin qavraya bilmədiyi; əskiyi-artığı olmayan.

Bu ifadələri riyazi terminlərlə xülasə etmək istəsək, varlığına dair heç bir ədəd sistemində (natural ədədlərdən xəyali ədədlərə qədər) hər hansı bir əməliyyat aparmaq mümkün olmayan mükəmməl, kamil varlıq.

Bu qədər zəngin mənası olan bir sözün Quranda Allah barəsində işlədilmədən əvvəl, tarixdə hər hansı başqa bir məbud barədə işlədilməməsi də diqqəti cəlb edən bir məsələdir.

**Allah** - Fövqəladə qüvvələri olan, üstün ağıl sahibi və ərşdə hökmranlığını qurmuş olan. Əlbəttə bu sözlər həqiqi mənasında yox, məcazi mənada başa düşülməli və burada, Allahın zatından yox, Onun təcəllasından, Onun qüdrətinin əks olunmasından söhbət getdiyi bilinməlidir. Musa peyğəmbərə ilk vəhy gəldikdə Allahın "dağda, ağacda bir alov" kimi təcəlla etdiyi də Quranda yer almışdır.

**İsteva** - *isteva* sözünün məcazi mənası belədir: "hakimiyyət qurdu, nəzarət altına aldı". Ayələrdə görüldüyü kimi, "ərşə isteva etdi" sözü "ən böyük, ən uca məqamda hakimiyyət qurdu, nəzarəti öz əlinə aldı" mənasına gəlir. Bu mütəşabeh qavram, ayədə məcazi mənasıyla işlədilmişdir. *İsteva* sözü "Rəsmi Müshəf"də bu ayələrdə işlədilir: Yunus / 3, Rəd / 2, Furqan / 59, Səcdə / 4, Taha / 5, Əraf / 54, Bəqərə / 29. Ayədə *isteva edən* ifadəsiylə nəzərdə tutulan da Allahdır. Çünkü *isteva* Allahın sifətlərindən biri olub, mələklərin yaxud bəndələrin sifəti deyil.

**Növbəti seriyada ardı var...**

# ALLAHI İSİMLƏRİ İLƏ TANIYAQ



## BASİR
### Yaxşı görən

**Məgər onlar başları üstündə qanad çalaraq uçan quşları görmürlərmi? Onları ancaq Rəhman saxlayır. Həqiqətən, O, hər şeyi görəndir!**
(Mulk surəsi, 19)

İnsanın görüş sahəsi, şübhəsiz, çox məhduddur. Sadəcə gözlə görə biləcəyimiz məsafə ən çoxu bir neçə kilometrdir. Üstəlik, bu da ancaq açıq havada, yüksək bir yerdən baxılsa, mümkün olur. Ancaq şərtlər nə qədər uyğun olsa da, görə bildiyimiz ən uzaq yer dumanlı görüntüdən başqa bir şey deyil.

İnsan bəzi vəziyyətlərdə (xüsusilə də tək qaldığı zaman) özünü heç kimin görmədiyini zənn edir. Gizli iş görərkən, gizlənərkən, ətrafında heç kim olmadıqda özünü heç kimin görmədiyindən əmindir. Bu cür mühitlərdə insanlar istədikləri hər şeyi edə biləcəklərini, heç kimə qarşı məsul olmayacaqlarını, etdikləri səhvlərin əsla qarşılarına çıxmayacağını zənn edirlər. Halbuki, bu, səhvdir. Çünki insanın unutduğu çox əhəmiyyətli bir həqiqət var: Allah hər an hər şeyi bütün detalları ilə görəndir.

İnsan gözləri ilə ancaq müəyyən bir sahəni gördüyü halda, Allah o adamın olduğu otağı, onun xaricindəki digər otaqları, o evin hamısını, o evin yerləşdiyi şəhəri, şəhərin içində olduğu ölkəni, onları əhatə edən qitəni, bütün bunların hamısını əhatə edən dünyanı, bütün planetləri, kosmosu və onun da kənarındakı sərhədləri eyni anda görür. Quranda Allahın hər şeydən xəbərdar olduğu belə bildirilir:

**Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın!**
(Yunus surəsi, 61)

**Namaz qılın, zəkat verin! Özünüzdən ötrü etdiyiniz xeyri Allah yanında taparsınız. Həqiqətən, Allah nə etdiklərinizi görəndir!**
(Bəqərə surəsi, 110)

**Onların Allah yanında dərəcələri vardır. Allah onların etdiyi işləri görəndir.** (Ali-İmran surəsi, 163)

**Ayələrimizi inkar edənlər Bizdən gizli qalmazlar. Cəhənnəm oduna atılan kəs yaxşıdır, yoxsa qiyamət günü arxayın gələn kəs?! İstədiyinizi edin. Şübhəsiz ki, O, nə etdiyinizi görəndir.**
(Fussilət surəsi, 40)

**Əgər o kafirlər sizinlə döyüşə girişsəydilər, mütləq arxa çevirib qaçacaq, özlərinə nə dost, nə də havadar tapacaqdılar. Allahın əvvəldən qoyduğu qayda-qanun belədir. Sən Allahın qayda-qanununda heç vaxt bir dəyişiklik görə bilməzsən! Sizi onlara qalib etdikdən sonra Məkkə vadisində onların əlini sizdən, sizin də əlinizi onlardan çəkən Odur. Allah sizin nə etdiklərinizi görəndir!**
(Fəth surəsi, 22-24)

**Allah göyləri və yeri ədalətlə yaratmışdır ki, hər kəs qazandığının əvəzini alsın. Belə ki, onlara heç bir haqsızlıq edilməyəcəkdir.**
(Casiyə surəsi, 22)

## BASİT

### Açan, genişlədən, bollaşdıran

**Allah yolunda yaxşı borc verən kimdir ki, onun mükafatını qat-qat artırsın?! Allah daraldar, genişlədər. Siz Onun hüzuruna qaytarılacaqsınız.**
(Bəqərə surəsi, 245)

Allah Özünə iman edən, ürəkdən itaət edənlərə dünyada maddi və mənəvi bolluq, genişlik verir. Onların qarşılarındakı çətinlikləri açır. İman edənlər qarşılaşdıqları hər cür çətinlikdə, darlıq və xəstəlikdə yalnız Allaha sığınırlar və Onu vəkil edirlər. Bunun qarşılığı olaraq Allah inkar edənlərin işlərini çətinləşdirərkən, möminlərin işlərini asanlaşdırır.

Bu mövzuda Quranda verilmiş bir çox nümunə var. Məsələn, Hz. Musa və ona tabe olan İsrail oğulları Fironun zülmünə görə yurdlarından çıxmaq məcburiyyətində qalmışdılar. Ancaq Firon onları təqib etmiş və tutmaq üçün ordusu ilə birlikdə onları izləmişdir. Bu qaçış əsnasında Fironun ordusu ilə dəniz arasında qalan İsrail oğulları həqiqətən tutulduqlarını zənn etmişdilər. Lakin Allah Hz. Musanın duasını qəbul etmiş, möcüzə göstərərək dənizi yarmış və İsrail oğullarını Fironun zülmündən qurtarmışdır. Üstəlik, bunun ardından Fironu və ordusunu məhv etmiş, onların çıxdıqları yerlərə İsrail oğullarını varis etmişdir. **"Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sığınacaq və genişlik tapar. Kim evindən çıxıb Allaha və onun Peyğəmbərinə tərəf hicrət etsə, sonra isə ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər! Allah bağışlayandır, rəhm edəndir!"** (Nisa surəsi, 100) ayəsi də təcəlli etmişdir. Şübhəsiz, Allahın vədi bütün inanan qulları üçün hər dövrdə etibarlı olub və olacaq. Bir ayədə belə xəbər verilir:

**Həqiqətən, Rəbbin istədiyi şəxsin ruzisini artırar da, azaldar da. Doğrudan da, O, Öz bəndələrinin halından xəbərdardır, görəndir!**
(İsra surəsi, 30)

**De: "Rəbbimiz hamımızı bir araya cəmləşdirib sonra da aramızda ədalətlə hökm verəcəkdir. O, ən ədalətli Hakimdir, biləndir"** (Səba surəsi, 26)

## BATİN

### Gizli

**Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi biləndir!**
(Hədid surəsi, 3)

Hal-hazırda olduğunuz otaqda ətrafınıza baxın. Gözlərinizlə görə bildiyiniz hər şeyin hazırlanmış olduğunu görərsiniz. Qapı, stolun üzərindəki maqnitofon, divara asılmış şəkil, pəncərə... Bütün bunların kimsə tərəfindən hazırlanıb, oraya yerləşdirildiyindən əminsiniz. İndi də pəncərədən çölə baxın. Gördüyünüz mənzərədə böyük ehtimalla dəniz, ağaclar, Günəş, səma, uçan quşlar, bəlkə ada və ya bunlara bənzər şeylər olacaq. Əgər gecədirsə, səmada parıldayan ulduzları və Ayı da görə bilərsiniz. Bəs oturduğunuz otaqdakı əşyaların kimsə tərəfindən hazırlanmış olduğuna əmin olduğunuza görə, çöldə gördüklərinizin də hazırlandığı dəqiq deyilmi?

Əlbəttə, dəqiqdir. Əgər divardakı şəkilin təsadüfən meydana gəlib oraya gəldiyini iddia edə bilmirsinizsə, Günəşin, ulduzların və Ayın da təsadüfən meydana gəlib səmadakı yerlərini aldıqlarını əsla iddia edə bilməzsiniz. Yerdə və göydə gördüyünüz hər şeyin hazırlayanı, istehsalçısı, yaradıcısı var. Belə ki, hər şeyi üstün sənətlə var edən Rəbbimiz yaratdığı şeylərlə Özünü bizə tanıdır.

Pəncərədən çölə baxdığınızda Onu görə bilməzsiniz, çünki Allahın varlığı, gücü və sənəti yaratdığı şeylərlə açıq-aşkar görünməsinə baxmayaraq, Şəxsi gizlidir.

Allahın yuxarıdakı ayədə bildirilən Batin sifətinin mənası budur. Onun varlığı və hakimiyyəti kainatdakı hər nöqtədə açıq-aşkar görülür, ancaq insanlar Onun Şəxsini görə bilməz. Onu (Allahın diləməsi xaricində) heç kim görə bilməz,

amma O, hər yeri əhatə etmişdir. Aşağıdakı ayədə bildirildiyi kimi:

**Gözlər Onu dərk etməz. O, gözləri dərk edər. O, Lətifdir, xəbərdardır!** (Ənam surəsi, 103)

## BƏDİ

### Nümunəsiz Olaraq Yaradan

**Göyləri və yeri icad edən Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: "Ol" deyər, o da olar.** (Bəqərə surəsi, 117)

Ən qabiliyyətli, ən ağıllı insanın kəşf edə biləcəyi yenilik, düşünə biləcəyi fərqli fikir, ancaq o günə qədər öyrəndikləri və ətrafında gördükləri ilə məhdudlaşır. İnsan yer üzünə beş hiss ilə gəlmişdir və bu hisslərdən başqa altıncı hissi təxəyyül etməsi belə mümkün deyil. Üstəlik, sahib olduğu hisslərdən də ancaq müəyyən çərçivədə istifadə edə bilir. Məsələn, müəyyən rəngləri görür, müəyyən tezliklərdəki səsləri eşidir. Buna görə də yer üzündə olmayan bir şeyi düşünməsi, kəşf etməsi, ağlına gətirməsi əsla mümkün deyil.

Necə ki, bu gün elmi kəşflərin bir qismini araşdırdığımız zaman insanların təbiətdə gördükləri canlıları və bunların arasındakı qüsursuz sistemləri özlərinə nümunə götürdüklərini görürük. Məsələn, delfinlərin burun çıxıntısı müasir böyük gəmilərin hazırlanmasında istifadə edilir. Radarların iş prinsipi yarasaların səs dalğaları yayaraq çalışan qəbul etmə sistemi ilə eynidir. Bunlar kimi daha bir çox nümunə də verilə bilər.

Halbuki, Allahın elmi sonsuzdur. İnsanın ətrafında gördüyü və görə bilmədiyi hər şeyi Allah nümunəsiz yaratmışdır. Kainatın, qalaktikaların, planetlərin, canlıların, hətta sadəcə bir hüceyrənin belə olmadığı zamanda Allahın diləməsi və: “Ol”, -deməsi ilə atomlardan, molekullardan, hüceyrələrdən, canlılardan, planetlərdən, ulduzlardan, qalaktikalardan ibarət olan qüsursuz bir sistem meydana gəlmişdir. İnsanların minlərlə il sonra kəşf etdikləri mikrodünyadan, ancaq 20-ci əsrdə xəbərdar olunan göy cisimlərinə qədər hər şey Allahın hazırladığı sistemlərdir və Onun təyin etdiyi qanunlara tabedir. Allah heç bir nümunə yox ikən kainatı və içindəki hər detalı meydana gətirmişdir. Allahın hər şeyi yaradan olduğu ayələrdə belə xəbər verilir:

**De: "Rəbbim ədaləti əmr etdi. Hər səcdədə üzünüzü** *(Ona)* **tutun. Dini yalnız Ona məxsus edərək ibadət edin. "Sizi** *(yoxdan)* **yaratdığı kimi" yenə Onun hüzuruna qayıdacaqsınız!"** (Əraf surəsi, 29)

**O, göyləri və yeri var edəndir. Allah`ın necə övladı ola bilər ki, Onun heç bir yoldaşı yoxdur. Hər şeyi O yaratmışdır. O, hər şeyi biləndir!** (Ənam surəsi, 101)

**Həqiqətən, Allah ağcaqanadı və ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən** *(gələn)* **haqdır. Küfr edənlər isə deyirlər: "Bu məsəllə Allah nə** *(demək)* **istədi?" Halbuki, O, bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır.** (Bəqərə surəsi, 26)

**Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir.** (Nur surəsi, 45)

## BƏRR

### Qullarına Qarşı Yaxşılığı Çox Olan

**"Biz bundan əvvəl Ona ibadət edirdik. Şübhəsiz ki, O, kərəm sahibidir, rəhm edəndir!"** (Tur surəsi, 28)

Allah insanı yaratmış və onu yaşaması üçün hər cəhətdən əlverişli olan məkana yerləşdirmişdir. Bu məkanda var olan hər şeyi insan üçün xüsusi yaratmış və onun xidmətinə vermişdir. Nəhl surəsində Allah insanlara təqdim etdiyi nemətlərin bir qismini belə xəbər verir:

**Allah insanı nütfədən xəlq etdi. Bununla belə, o, birdən-birə açıq-aşkar bir düşmən kəsildi. Davarı da O yaratdı. Bunlarda sizin üçün istilik, cürbəcür mənfəət vardır, həm də onlardan yeyirsiniz. Onları səhər naxıra, axşam axura gətirdikdə baxıb zövq alırsınız. Onlar sizin yüklərinizi özünüzü yormadan çata bilməyəcəyiniz bir ölkəyə daşıyarlar. Həqiqətən, Rəbbin şəfqətlidir, mərhəmətlidir! Sizin minməyinizdən ötrü, həm də zinət üçün atı, qatırı və uzunqulağı** *(O yaratdı)*. *(Allah)* **hələ sizin bilmədiyiniz neçə-neçə şeylər də yaradacaqdır. Doğru yolu göstərmək Allaha aiddir. Ondan kəc olan yol da vardır. Əgər** *(Allah)* **istəsəydi, sizin hamınızı doğru yola salardı. Göydən sizin üçün yağmur endirən Odur. Ondan siz də, içində** *(heyvanlarınızı)* **otardığınız ağaclar da içər.** *(Allah)* **onunla sizin üçün əkin, zeytun, xurma, üzüm və bütün meyvələrdən yetişdirir. Düşünüb-daşınanlar üçün bunda dəlillər vardır! O, gecəni və gündüzü, Günəşi və Ayı sizə ram etdi. Ulduzlar da Onun əmrinə boyun əymişdir. Doğrudan da, bunda ağılla düşünənlər üçün ibrətlər vardır!** *(Allah)* **yer üzündə yaratdığı cürbəcür şeyləri də sizin ixtiyarınıza verdi. Öyüd-nəsihət qəbul edənlər üçün, sözsüz ki, bunda da əlamətlər vardır! Təzə ət yeməyiniz, taxdığınız bəzək şeylərini çıxartmağınız üçün dənizi də sizə ram edən Odur.** *(Allahın)* **nemətindən ruzi axtarmağınız üçün sən gəmilərin onu yara-yara üzüb getdiyini görürsən. Bəlkə, şükür edəsiniz! Sizi yırğalamasın deyə, yer üzündə möhkəm dayanan dağlar və gedib çata biləsiniz deyə, çaylar və yollar yaratdı; əlamətlər də** *(müəyyən etdi)*. *(İnsanlar gecə vaxtı)* **yollarını ulduzlar vasitəsilə taparlar.** (Nəhl surəsi, 4-16)

Şübhəsiz, yuxarıda sayılan nemətlərdən sadəcə biri belə insanın öz imkanları ilə əldə etməsi, meydana gətirməsi, sahib olması mümkün olan şeylər deyil. Bunların hamısı Allahın insana lütf etdiyi gözəlliklərdir. Yuxarıda ard-arda sıralanan nemətlər Allahın qullarına qarşı yaxşılığının çox olduğunun açıq-aşkar dəlilləridir.

Bəs bu qədər yaxşılıq qarşısında insan nə etməlidir?

Allah yuxarıdakı ayələrin davamında verdiyi nemətlərin qarşılığında qullarının nəsihət alıb düşünməli və Özünə qulluq etməli olduqlarını belə bildirir:

**Heç yaradan yaratmayana bənzəyərmi?! Məgər düşünmürsünüz?! Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!** (Nəhl surəsi, 17-18)